RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 177 (9344) 20 AVQUST 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İlham Əliyevin global nüfuzu

## BMT-dəki diplomatik qələbə dostluğun, etibarlı tərəfdaşlığın və Qoşulmama Hərəkatına uğurlu sədrliyin yaratdığı reallıqdır




**Ermənistan və ona havadarlıq edən Fransa və ABŞ-nin yenidən Azərbaycana qarşı bədnam niyyətləri fiaskoya uğradı. Bu üç ölkə hər zamankı kimi "birləşərək" BMT Təhlükəsizlik Şurası çərçivəsində ölkəmizə qarşı hansısa qətnamənin qəbuluna çalışsa da, cəhdləri uğursuz alındı.**

Səbəb isə uydurmalara yox, həqiqətlərə əsaslanmaq oldu. Həm Azərbaycanın, həm dost ölkələrin, həm də Qoşulmama Hərəkatına üzv dövlətlərin nümayəndələrinin əsl reallıqları göstərmələri kifayət etdi ki, BMT "üç bacı"ya rədd cavabı versin.

Əlbəttə ki, bu, Azərbaycan diplomatiyasının növbəti uğuru kimi dəyərləndirilməlidir. O diplomatiya ki, konturları İlham Əliyev tərəfindən çox mükəmməl şəkildə hazırlanıb və uğurla icra olunur.

### Cənubi Qafqazı yenidən münaqişə ocağına çevirmək istəyirlər

Həqiqət budur ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan təkcə Ermənistanla deyil, bu ölkəyə dəstək göstərən dövlətlərlə, ümumilikdə dünya erməniliyi ilə informasiya cəbhəsində siyasi, diplomatik, həmçinin hüquqi müstəvidə mübarizə aparır. Haqq və ədalətin tərəfində olan İlham Əliyev regionda sülhün, təhlükəsizliyin təmin olunmasını siyasətinin prioritetinə çevirib və bu istiqamətdə irəli sürülən istənilən təklifi dəstəkləyir. Amma görünən odur ki, bəzi qüvvələr Qafqazda sülhün təmin olunmasında nəinki maraqlıdırlar, hətta regionun yenidən münaqişə ocağına çevrilməsi üçün bütün çirkinliklərə əl atmağa hazırdırlar.

Amma İlham Əliyevin yaratdığı yeni reallıqlar, yürütdüyü tam müstəqil siyasət və qlobal lider kimi artan nüfuzu buna imkan vermir. Sözü imzası qədər keçərli olan, verdiyi vədləri hər zaman reallaşdıran və etibarlı tərəfdaş statusuna sahiblənən İlham Əliyev həyata keçirdiyi diplomatiya ilə əsl reallığı nümayiş etdirir. Həqiqət tərəfdarları isə Azərbaycanın yanında olduqlarını, ölkəmizə hər zaman dəstək göstərdiklərini əməlləri ilə sübuta yetirirlər.

Elə Ermənistan və havadarlarının təkidi ilə keçirilən BMT Təhlükəsizlik Şurasının son iclasında qardaş Türkiyənin, dost Albaniyanın, eləcə də Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının üzv dövlətlərinin BMT-dəki daimi nümayəndələrinin sərgilədikləri mövqe bunu bir daha təsdiqləyir.

→ 2

# Sənətə və sənətkara qayğı nümunəsi

## Prezident İlham Əliyev tərəfindən milli mədəniyyətimizin inkişaf strategiyası uğurla həyata keçirilir

Milli mədəniyyətimizin inkişafında özünəməxsus xidmətləri olan sənət adamlarının dəyərləndirilməsi, onlara ən yüksək səviyyədə dövlət qayğısı Prezident İlham Əliyevin mədəniyyət siyasətinin əsas səciyyəvi xüsusiyyətlərindəndir. Dövlət rəhbərimizin həyata keçirdiyi mədəniyyət siyasəti cəmiyyətimiz tərəfindən həm dəstəklənir, təqdir edilir, həm də ölkəmizin bu günü və gələcəyi üçün böyük faydalar yaradır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin son aylarda görkəmli sənət adamları ilə bağlı imzaladığı müvafiq sərəncamlar ictimai rəğbətlə qarşılanır.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə son aylarda görkəmli dirijor Rauf Abdullayev "Heydər Əliyev mükafatı", Xalq yazıçısı Elçin Əfəndiyev və sevilən aktyor Ramiz Məlik "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", tanınmış kino xadimi Oqtay Mirqasımov, müqtədir aktyor Rasim Balayev "İstiqlal" ordeni, Xalq yazıçısı Mövlud Süleymanlı "Şərəf" ordeni, təkrarsız ifaları ilə qəlblərdə daimi yer tutan Akif İslamzadə "Şöhrət" ordeni ilə təltif olunublar.

→ 2

# Ermənistanın hər iki üzü də saxtadır

## Rəsmi İrəvan sülh istəsəydi, bədnam əməllərdən, təxribatlardan əl çəkərdi

Avqustun 16-da BMT TŞ-də müzakirələrə başlamadan əvvəl Ermənistan Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Okamponun qərəzli və faktlara əsaslanmayan hesabatının beynəlxalq ictimaiyyəti ayağa qaldıracağına ümid etsə də, bu, puç oldu. Məlum oldu ki, revanşistlərin bu yalanla dolu hesabatı İrəvanda ayaq açsa da, oradan kənara çıxa bilməyib. Əksinə, iclasda məruzəçi dövlətlər tərəfindən səsləndirilən fikirlər, eləcə də Laçın dəhlizinə paralel olaraq Ağdam-Xankəndi yolundan istifadə edilməsinin mümkünlüyünün bildirilməsi Azərbaycanın maraqlarına cavab verib.

→ 3

# Qəribədir ki, dalana dirənən Ermənistan müharibəyə hazırlaşır

İyirmi nəfərlik komanda heyəti ilə baş tutan görüşdə "respublikanın müdafiə qabiliyyəti" müzakirə edilib. Bundan iki gün əvvəl isə yeni "spiker", general-mayor daşnak Kamo Vardanyan hərbçilərlə görüş keçirmişdir.

Burada bir məsələyə xüsusi diqqət yetirməyi vacib sayırıq. Bu o deməkdir ki, Ermənistan və separatçılar "məzlum", "yazıq" erməni oyununun nəticə vermədiyini anlayıb ritorikanı dəyişərək 44 günlük Vətən müharibəsindəki məğlubiyyətdən sonra yenidən güc toplamaq həvəsinə düşüblər. Deyə bilərik ki, artıq Ermənistan cəmiyyətində müharibəyə hazırlaşmaq barəsində açıq söhbət gedir.

Heç kimə sirr deyil ki, Nikol Paşinyanın sülh müqaviləsini uzatmaqda məqsədi zaman qazanmaq, yenidən güc toplamaq idi. Şübhəsiz ki, uydurma "humanitar böhran" şousu yaradıb, BMT-də tamaşaya qoyanlar Ermənistana yeni vədlər veriblər. Dünən "acından öldüklərini", "humanitar fəlakət" yaşadıqlarını, "yağ, ərzaq, çörək dalınca uzaq-uzaq yerlərə getdiklərini" iddia edən bir millətin bu gün müharibəyə hazırlaşması qəribə görünür. Bunu edənlər utanmaq hissindən məhrum olmuş ermənilərdir.

→ 3

# İkili standartların ABŞ nümunəsi

## Ağ Evin sülh danışıqları prosesində vasitəçi olmaq həvəsi heç də xoşniyyətli deyil

ABŞ-nin "Vaşinqton Post" qəzetində Azərbaycan əleyhinə silsilə məqalələrin dərci də bir daha bu dövlətin ölkəmizə qarşı ədalətsiz, ikiüzlü siyasətindən xəbər verir. Necə olur ki, 30 il Ermənistanın Azərbaycan torpaqlarını işğalda saxlamasına göz yuman, haqqı tapdanan, soyqırımlarına, qətliamlara məruz qalan, evindən, yurdundan didərgin salınan azərbaycanlıların hüquqlarını, haqlarını tanımayanlar, bununla bağlı heç vaxt mövqe nümayiş etdirməyənlər, Ermənistanın özbaşınalıqlarına heç bir reaksiya verməyən ölkələr, beynəlxalq təşkilatlar, həmçinin KİV Azərbaycan haqlı olduğu halda səslərini çıxarmırlar. Hələ üstəlik əleyhimizə yazılarla çıxış edirlər.

→ 3

# Qanunsuz erməni silahlı dəstələri Xocalı rayonu istiqamətində fortifikasiya qurğularını hazırlamağa cəhd göstəriblər

Avqustun 19-u saat 16:00 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocalı rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında kənd təsərrüfatı işləri adı altında uzunmüddətli fortifikasiya qurğularını hazırlamağa cəhd göstəriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan mühəndis işləri dərhal dayandırılıb.

◆ "Böyük qayıdış" proqramı sürətlə icra olunur

# Füzulililərin yurda köçmək həsrəti bitir...



→ 8

# Füzuli şəhərində Özbəkistanın inşa etdiyi məktəbdə son tamamlama işləri görülür

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzulidə böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

→ 8



# Sənətə və sənətkara qayğı nümunəsi

## Prezident İlham Əliyev tərəfindən milli mədəniyyətimizin inkişaf strategiyası uğurla həyata keçirilir

**Bəşər mədəniyyətinə incilər qazandıran, özünü orada ifadə edən hər bir ölkə zəngin sərvətləri ilə birgə yüksəlir və inkişaf edir. Mədəniyyət ona dəstək verən hər bir topluma əbədiyyət qazandırır. Tarix boyunca onun yeni nailiyyətlərinə yol açır. Bu reallığı düzgün dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın mədəni irsinin dünyada təbliği istiqamətində ardıcıl dövlət siyasətinin həyata keçirilməsinə daha çox üstünlük verir.**

Ölkə rəhbəri cəmiyyət həyatının bütün əhəmiyyətli istiqamətləri kimi, mədəniyyət sahəsində də aydın, məqsədyönlü siyasət yürüdür. Milli irsin qorunması, inkişafı, dünyada təbliği, Azərbaycanın dövlət maraqlarının təmin olunması üçün müasir dövrün güclü təsir vasitələrindən olan mədəniyyət diplomatiyasının imkanlarından istifadə, zəngin mədəni ənənələrə əsaslanan yeni inkişaf meyillərinin formalaşmasına dəstək bu siyasətdə mühüm yer tutur. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayır ki, biz bu məsələlərə daha geniş kontekstdən baxmalıyıq: "Ümumiyyətlə, mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz".

Bu, təkcə milli mədəniyyətimizə deyil, ölkəmizin iqtisadi, siyasi yüksəlişinin, beynəlxalq mövqeyinin təməl prinsipi olan mədəni-mənəvi dəyərlərimizin işığında xalqımızın, cəmiyyətimizin gələcəyinə uzaqgörən bir baxışdır.

Milli mədəniyyətimizin inkişafında özünəməxsus xidmətləri olan sənət adamlarının dəyərləndirilməsi, onlara ən yüksək səviyyədə dövlət qayğısı Prezident İlham Əliyevin mədəniyyət siyasətinin əsas səciyyəvi xüsusiyyətlərindəndir. Dövlət rəhbərimizin həyata keçirdiyi mədəniyyət siyasəti cəmiyyətimiz tərəfindən həm dəstəklənir, təqdir edilir, həm də ölkəmizin bu günü və gələcəyi üçün böyük faydalar yaradır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin son aylarda görkəmli sənət adamları ilə bağlı imzaladığı müvafiq sərəncamlar ictimai rəğbətlə qarşılanır.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə son aylarda görkəmli dirijor Rauf Abdullayev "Heydər Əliyev mükafatı", Xalq yazıçısı Elçin Əfəndiyev və sevilən aktyor Ramiz Məlik "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", tanınmış kino xadimi Oqtay Mirqasımov, müqtədir aktyor Rasim Balayev "İstiqlal" ordeni, Xalq yazıçısı Mövlud Süleymanlı "Şərəf" ordeni, təkrarsız ifaları ilə qəlblərdə daimi yer tutan Akif İslamzadə "Şöhrət" ordeni ilə təltif olunublar.

Həm sənəti ilə könülləri fəth etmiş görkəmli opera müğənnisi, həm də unudulmaz Müslüm Maqomayevin yadigarı gözündə gördüyümüz Tamara Sinyavskayanın Azərbaycan mədəniyyətinin təbliği sahəsindəki uzunmüddətli səmərəli fəaliyyəti də "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə qiymətləndirilib. Eləcə də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında böyük xidmətlərinə görə Yuli Qusman "Şərəf" ordeninə layiq görülüb.

Bütün bunlar mədəniyyətə həssas münasibətin, bu sahənin dövlət və cəmiyyət həyatındakı roluna verilən önəmin, sənət adamlarına diqqət və qayğının təzahürüdür. Tarixboyu böyük dövlət adamlarının qüdrəti həm də onların milli-mənəvi dəyərlərə, mədəni irsə münasibəti əsasında müəyyənləşib. Milli mədəniyyətin və bu vasitə ilə ümumən bəşər mədəniyyətinin inkişafına yol açan dövlət rəhbərlərini tarix həmişə sonsuz rəğbət hissi ilə xatırlayıb və hər zaman da xatırlayacaq. Çünki insanın bu dünyadakı əsas missiyası məhz mədəniyyət yaratmaq, onu nəsillərdən-nəsillərə ötürməkdir.

### Sənət əbədidir

Zaman dəyişir, hər yeni dövr inkişaf reallıqları üzərində öz əlavələrni və düzəlişlərini edir. Dialektikanın əsas inkişaf qanunauyğunluqlarına əsasən bir nəsil özündən əvvəlkinin yaratdıqları üzərində ondan daha mükəmməlini ərsəyə gətirməyə çalışır. Əsl sənət və mədəniyyət isə əbədi qalır. Özündən sonrakı dövrlərin həyat gerçəkliklərinə də bələdçilik edir.

Digər tərəfdən bazar iqtisadiyyatının, biznes yanaşmasının getdikcə insanların həyatına daha çox hakim olduğu, ciddi bir dəyəri, mənəvi-tərbiyəvi keyfiyyəti olmayan kütləvi mədəniyyətin əsl sənəti getdikcə küncə sıxışdırmağa başladığı müasir dünyamızda dövlət rəhbərlərinin qalıcı mədəniyyətə, məşhur sənət adamlarına bu cür diqqət və qayğısı xüsusilə önəmlidir. Prezident İlham Əliyev bu sahədə bir çox siyasi liderə nümunə göstərir. Dövlətimizin rəhbəri əslində müasir dünyada sənətə, sənətkara münasibətin necə müəyyənləşməli olmasının meyarlarını yaradır. Qloballaşmanın milli mədəniyyətlərə, xalqların mənəvi dəyərlərinə qarşı böyük təhdidlər yaratdığı indiki çağımızda onları yaşatmaq və gələcəyə ötürmək üçün addımlar atır.

Ötən il dünyaşöhrətli Azərbaycan müğənnisi Müslüm Maqomayevin Bakıda abidəsinin açılışı və 80 illik yubiley tədbirləri keçirildi. Yubiley tədbirində Prezident İlham Əliyevin şəxsən iştirakı, Müslüm Maqomayev haqqında xoş xatirələrini bölüşməsi mədəniyyətə hörmətin, diqqət və qayğının, səsimizi, sözümüzü dünyaya yetirən sənət adamlarına verilən dəyərin ifadəsi kimi yaddaşlara yazıldı. Müslüm Maqomayev xalqımızın adını hər zaman qürurla andığı böyük azərbaycanlılardandır. Prezident İlham Əliyev abidənin açılış mərasimindəki çıxışı zamanı Müslüm Maqomayevin sənət uğurunu təcəssüm etdirən iki faktı xüsusi xatırlatdı. Hələ 30 yaşı olmadan o, Azərbaycanın Xalq artisti adına layiq görülmüşdür, 31 yaşında isə artıq Sovet İttifaqının Xalq artisti idi.

Müslüm Maqomayevin milli musiqi mədəniyyətimizin inkişafındakı xidmətləri müstəqillik dövründə də hər zaman yüksək qiymətləndirilmiş, o, müstəqil Azərbaycan Respublikasının ali mükafatları olan "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdu.

Bir mühüm faktı da qeyd edək ki, mədəniyyət sahəsində görülən işlər, atılan məqsədyönlü addımlar ölkəmizə mədəniyyət diplomatiyası istiqamətində də böyük uğurlar qazandırmaqdadır. Son onilliklərdə mədəniyyət diplomatiyası anlayışından tez-tez istifadə edilir. Bu, insanlar arasında qarşılıqlı anlaşma yaratmaq məqsədilə mədəniyyət və incəsənətin gücündən istifadədir. Azərbaycan beynəlxalq aləmdə zəngin potensiala və yüksək mədəniyyətə malik ölkə kimi nüfuz qazanıb, qısa müddətdə ümumdünya mədəniyyət diplomatiyası cərəyanına fəal şəkildə qoşularaq, özünü mədəni mübadiləyə, xalqların mənəvi yaxınlığına açıq, ümumbəşəri mədəni irsin zənginləşdirilməsinə və qorunmasına qadir dövlət kimi tanıtmağı bacarıb, bu istiqamətdə ciddi nəticələr qazanıb. Xalqımızın milli-mənəvi dəyərlərinin dünyada təbliği, mədəni və humanitar əlaqələrimizin genişlənməsi, əsrlər boyu bəşər mədəniyyətinə nadir töhfələr vermiş şəxsiyyətlərimizin müasir dünyaya təqdimatı Azərbaycanın xarici siyasət kursunun mühüm istiqamətidir.

Bu il Azərbaycan peşəkar milli teatrının 150 yaşa gəlib çatması əlamətdar tarixi hadisə kimi qeyd olundu. 1873-cü ildə bu xalqın ən öndə gedən, fədakar ziyalıları tərəfindən əsası qoyulmuş Azərbaycan teatrı xalqımızın misilsiz mədəni sərvətidir. Bu sərvətin qorunması və inkişaf etdirilməsi Azərbaycan Prezidentinin mədəniyyət siyasətində xüsusi yer tutur. Dövlət başçısı teatr sənətinin ölkəmizin ictimai-mədəni həyatındakı fəal rolunu hər zaman yüksək dəyərləndirir. Cəmiyyətimizdə milli və ümumbəşəri dəyərlərin təbliğində, vətənpərvərlik ruhunun, yüksək mənəvi keyfiyyətlərin aşılanması və estetik zövqün formalaşdırılmasında teatrın əvəzsiz imkanlarından istifadə zərurətini aktuallaşdırır. Ölkə rəhbərinin Azərbaycan teatrının inkişafı yönündə apardığı işlər konkret bir istiqamətlə məhdudlaşmır. Bu proses ardıcıl, davamlı və məqsədyönlüdür. Prezidentin cəmiyyət həyatının digər sferaları kimi, bu sahədə də verdiyi strateji qərarların məqsədi Azərbaycan teatrının layiq olduğu mövqeyə yüksəlməsinə, qloballaşan dünya teatr məkanına inteqrasiyasına dəstək olmaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında" 3 fevral 2023-cü il tarixli sərəncamı bu əhəmiyyətli milli dəyərimizə verilən qiymətin ifadəsi kimi böyük rəğbət doğurur. Sərəncamda oxuyuruq: "Dramaturgiyamızın tarixinin hər bir inkişaf mərhələsində Azərbaycan teatrı orijinal aktyor məktəbi ilə əlamətdar olmuş, yüksək səhnə mədəniyyətinə malik sənətkarlar və istedadlı rejissorlar nəsli yetişdirmişdir. Ölkəmizdə bütünlüklə milli dəyərlər zəminində dolğun fəaliyyəti üçün geniş inkişaf perspektivləri açılan teatrlar şəbəkəsi vardır".

Müstəqillik bərpa edildikdən sonra teatrımız tarixi ənənələrə söykənərək dövrün ruhuna uyğun milli zəmində inkişaf üçün yeni imkanlar qazandı. Ölkəmizdə teatrlar şəbəkəsi daha da inkişaf etdirildi. Azərbaycan teatrlarının dünyaya çıxmaq, onun inkişaf proseslərindən bəhrələnmək imkanları daha da genişləndi. 2013-cü il martın 1-də Azərbaycan Prezidenti "Azərbaycanda peşəkar milli teatrın yaradılmasının 140 illiyi haqqında" sərəncam imzaladı. Həmin ilin iyun ayında yubileylə bağlı təntənəli mərasim keçirildi. Mərasimdə xüsusi qeyd olundu ki, Cahangir Zeynalov, Hüseyn Ərəblinski, Hacıağa Abbasov, Hüseynqulu Sarabski, Səməd Mənsur, Mirzağa Əliyev, Sidqi Ruhulla, Fatma Muxtarova, Ülvi Rəcəb, Mustafa Mərdanov, İsmayıl Osmanlı və başqa görkəmli teatr xadimlərinin fəaliyyəti sayəsində Azərbaycan teatrı bir-biri ilə üzvi vəhdətdə olan iki xətt üzrə - Avropa və rus klassiklərinin, Azərbaycan dramaturqlarının əsərləri əsasında inkişaf edib. Bu iki istiqamət ölkə teatrında milliliklə bəşəriliyin, Şərq mentaliteti, sənət spesifikası ilə Avropa teatr ənənələrinin vəhdətini yaradıb. Cavid teatrı, Cabbarlı teatrı, sonrakı dövrlərdə S.Vurğun teatrı, İ.Əfəndiyev teatrı kimi anlayışlar Azərbaycan mədəniyyətinin mühüm hadisələri olub. Üzeyir bəy Şərqdə ilk dəfə olaraq "Arşın mal alan", "O olmasın, bu olsun" kimi klassik operettalar yazaraq onları teatrımızın səhnəsinə gətirib.

Sənətə, sənətkara diqqət və qayğısını heç zaman əsirgəməyən, milli mədəniyyətimizin inkişafı strategiyasını əzmlə həyata keçirərək ictimai şüurun inkişafına mühüm töhfələr verən dövlətimizin rəhbəri İlham Əliyevin sərəncamında da qeyd edildiyi kimi, 150 yaşına çatan Azərbaycan teatrı xalqımızın mədəni sərvətidir.

2023-cü il Azərbaycan kinosunun da 125 illik yubileyi ilə əlamətdar oldu, reallıq, çağırışlar və hədəflər mövzusunda forum keçirildi. Həmin forumda Azərbaycan kino sənətinin üzləşdiyi problemlər, perspektivlər müzakirə edildi, onların həlli yolları, yeni inkişaf istiqamətləri haqqında danışıldı. Hər zaman olduğu kimi, indi də milli ideologiyamızın, tariximizin, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin təbliğində mühüm rol oynayan Azərbaycan kino sənətinə Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət və qayğı göstərilir. "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı", ölkə rəhbərinin "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" 1 mart 2019-cu il tarixli sərəncamı milli kino sənətinə yüksək diqqət və qayğının bariz nümunəsidir. Bundan başqa, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında kino sənətinin də inkişaf etdirilməsi konsepsiyası öz əksini tapıb.

### Bizi birləşdirən dəyərlər

İstənilən xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında onun mənəvi dəyərləri mühüm rol oynayır. Həmin dəyərləri şərtləndirən dil, inanc sistemi, adət-ənənələr, mədəni özünəməxsusluqlar onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərir. Azərbaycan Prezidenti dəyərlərimizə milli vəhdətimizin əsas təminatçılarından biri, eyni zamanda xalqın tarixi yaddaşını yaşadan, bu yaddaşı torpağın yaddaşı ilə qovuşduran qırılmaz bir bağ kimi yanaşır. Nəsillər arasındakı əlaqənin əsas elementi kimi qiymətləndirir.

Prezident İlham Əliyev müasir Azərbaycan gəncliyinin də bu dəyərlərə hörmət ruhunda böyüyüb tərbiyə olunmasına çalışır. Çünki bu dəyərlər ruhunda yetişmək Vətənə sevgidir, keçmişə ehtiram, gələcəyə ümiddir, yaşlı nəslin təmsilçilərinə hörmətdir, onların inamını doğrultmaqdır. Tarixi mirasa sahib çıxıb onu göz bəbəyi kimi qorumaqdır. Qəhrəmanlıqdır, cəsarətdir, əzmkarlıqdır, Vətən uğrunda hər cür fədakarlıqlara hazırlıqdır. Eyni zamanda fərqli mədəniyyətlərə hörmət ruhudur.

Ölkə rəhbərinin məhz bu dəyərlər ruhunda yetişdirdiyi gənc nəsil 44 günlük Vətən müharibəsində tarixi zəfərimizi qazandı. Qarabağın, Şərqi Zəngəzurun azadlığına nail oldu. Ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Bu nəslin fəal təmsilçiliyi, yaxından iştirakı ilə bu gün tarixin ən güclü Azərbaycanı qurulur, yeni şərəfli səhifələri yazılır və mədəniyyət istiqaməti bu səhifələrdə yenə də ən aparıcı istiqamət kimi diqqəti cəlb edir.

Azərbaycan Prezidentinin təşəbbüsü, dəstəyi və bir çoxunda şəxsən özünün iştirakı ilə Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının, Vaqif Poeziya Günlərinin və digər mədəniyyət tədbirlərinin əsas məqsədlərindən biri də budur.

### İstedadlara dəstək

Böyük mədəniyyəti güclü istedada malik insanlar yaradır. İstedad hər nə qədər müstəsna qüvvə olsa belə onun da dəstəyə ehtiyacı var. Diqqət və qayğı görməyən istedadlı insanın parlaması, öz işığını hər zaman qoruyub saxlaması çox çətin olur. Bu, əsasən yaradıcı adamlara aiddir. Amma bütün yaradıcı adamları birləşdirən bir ümumi cəhət var. Onlar istedadlarının dəyərləndirildiyini, ortaya qoyduqları sənət nümunələrinin diqqət çəkdiyini və onlara layiqli qiymət verildiyini duyub hiss etmək istəyirlər.

Azərbaycan Prezidenti İlham Əliyevin elə son aylarda bu istiqamətdə imzaladığı fərman və sərəncamlar təkcə tanınmış mədəniyyət xadimlərinin əməyinin layiqincə qiymətləndirilməsini əhatə etmir, eyni zamanda ictimai şüurumuzun inkişafında xüsusi rolu olan mədəniyyət məbədlərimizə layiq olduğu qiyməti verir. Cəmiyyət üçün bu cür dəyərlərə aydın münasibət meyarı yaradır. 24 iyun 2023-cü ildə Azərbaycan Milli Kitabxanasının, 6 iyul 2023-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyinin qeyd edilməsi haqqında sərəncamlar bunun nümunəsidir.

Ölkəmizdə yetişən gənc istedadlar da dövlət rəhbərimizin diqqətindədir. "Heydər Əliyev adına təqaüd"ün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2023-cü il tarixli sərəncamı gənc istedadların dəstəklənməsi, motivasiya edilməsi məqsədini daşıyır. Belə bir təqaüdə layiq görülmək yüzlərlə zəkalı gəncimiz üçün gələcəyə açılan qapı, onların həyat yolunun ilk ən böyük uğurlarından biri olacaq.

Bütün bunlar Azərbaycan dövlətinin nə qədər hərtərəfli inkişaf proqramlarına malik olduğunu, mədəniyyətin, təhsilin, biliyin gücü ilə öz böyük hədəflərinə doğru addım-addım irəlilədiyini göstərir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# İlham Əliyevin qlobal nüfuzu

## BMT-dəki diplomatik qələbə dostluğun, etibarlı tərəfdaşlığın və Qoşulmama Hərəkatına uğurlu sədrliyin yaratdığı reallıqdır




*Əvvəli 1-ci səh.*

Qardaş Türkiyənin nümayəndəsi Sedat Önal ölkəsinin Ermənistanın Təhlükəsizlik Şurası da daxil olmaqla beynəlxalq platformalardan Laçın yolu ilə bağlı siyasi iddialarını səsləndirmək cəhdlərindən narahatlığını ifadə etdi.

Azərbaycanın haqlı mövqeyini müdafiə edən, Ağdam-Xankəndi yolundan humanitar məqsədlər üçün istifadəni dəstəkləyən ölkələrdən biri də Albaniya idi. Bu ölkəni BMT-də təmsil edən daimi nümayəndə Ferit Hoca isə diplomatlar qarşısında bəyan etdi ki, humanitar tələbatlar siyasiləşdirilməməli və digər məsələlərin həlli üçün sui-istifadə olunmamalıdır. Söhbət humanitar məsələdən gedirsə, mümkün olan hər şeyi, bütün variantları nəzərdən keçirmək mümkündür. Bura digər yollar, həmçinin təklif olunan Xankəndi - Ağdam yolu da daxildir. Albaniya mayın əvvəlində ABŞ-də baş tutan sülh danışıqlarından sonra Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinin aktivləşməsini alqışlayır.

Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının üzv dövlətlərinin BMT-dəki daimi nümayəndələri də ölkəmizin haqlı mövqeyini müdafiə etdikləri üçün bu ali təşkilat Ermənistan və havadarlarının məkrli niyyətlərinə "yox" dedi. Xüsusən də erməni diasporu və lobbisinin, ermənipərəst dairələrin səyləri nəticəsiz qaldı.

### Nüfuz artır, geosiyasi çəki yüksəlir, etibarlı tərəfdaşlar çoxalır

Bu proses İlham Əliyev diplomatiyasının növbəti təntənəsi, Ermənistanın, xüsusən də Fransanın daha bir uğursuzluğu ilə yadda qaldı.

Bütün bunlar, həqiqətən də, Azərbaycanın doğru yolda olduğunun və İlham Əliyevin qlobal nüfuzunun gündən-günə yüksəldiyinin bariz təcəssümüdür. Xüsusən də dövlət başçımızın Qoşulmama Hərəkatının sədri kimi ortaya qoyduğu fəaliyyət, irəli sürdüyü qlobal təşəbbüslər Azərbaycanın geosiyasi əlaqələrinin daha da möhkəmlənməsini, etibarlı tərəfdaşlarının daha da artmasını şərtləndirib.

Reallıq budur ki, İlham Əliyev beynəlxalq problemlərin həllində mühüm rol oynayan və müasir dövrdə çoxqütblü, ədalətli və demokratik dünya düzəninin formalaşmasında müsbət potensiala malik olan Qoşulmama Hərəkatına sədrliyi üzv dövlətlərin mütləq əksəriyyəti tərəfindən təqdir edilir. Əgər belə olmasaydı, bitən sədrlik müddəti yenidən Azərbaycana həvalə olunmazdı.

Qoşulmama Hərəkatı heç bir hərbi bloka qoşulmayan 120 dövləti özündə birləşdirir. BMT-dən sonra dünya ölkələrini bir araya gətirən ikinci böyük təşkilatdır. Hərəkata sədrlik müxtəlif regional qruplardan olan dövlətlər arasında üç ildən bir rotasiya edilir. Müvafiq regional qrupdan namizədliyi təqdim etmiş dövlət təşkilatın sammiti vaxtı bütün üzv dövlətlərin razılığı ilə sədr seçilir. Sədr dövlət üçillik sədrlik müddətinin əvvəlində zirvə görüşünə və sədrliyinin axırıncı ilində nazirlər iclasına evsahibliyi edir. Ölkəmiz Qoşulmama Hərəkatına 2011-ci ildə üzv olub və 2019-cu ildən təşkilata sədrlik edir. 2022-ci ildə ölkmizin hərəkata sədrlik müddət başa çatsa da, üzv dövlətlər Azərbaycanın təşkilata uğurlu sədrliyini nəzərə alaraq əlavə 1 il müddətinə sədrlik etməsi ilə bağlı təklif irəli sürdülər. İlham Əliyev hərəkatın fundamental prinsiplərinə və dəyərlərinə olan sadiqliyini və mürəkkəb dövrdə təşkilata səmərəli sədrliklə bağlı qazandığı dəyərli təcrübəni nəzərə alaraq, bu müraciətə müsbət cavab verdi. Beləliklə, Azərbaycanın hərəkata sədrliyi 2023-cü ilə qədər uzadıldı.

Ölkəmiz hərəkata sədrliyi dövründə beynəlxalq hüququ və ədaləti daim müdafiə etdi. İlham Əliyev hərəkata rəhbərliyi dövründə bu prinsiplərə sadiq qaldı və bununla da üzv dövlətlərin onun siyasətinə göstərdiyi etimad daha da yüksəldi. Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra Azərbaycanın quruma sədrlik etməsi üzv dövlətlərin ölkəmizə olan inamının və Azərbaycanın beynəlxalq nüfuzunun artmasının, eləcə də respublikamızın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsinə çevrildi.

Vətən müharibəsindən öncə Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırmışdı. Məhz genişmiqyaslı uğurlu beynəlxalq fəaliyyəti sayəsində ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi hərəkatın sənədlərində dəstəklənirdi.

Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi kimi Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in keçmiş Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsini də geri götürməyə məcbur olmasını göstərmək olar. 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı da hərəkata üzv dövlətlər tərəfindən alınıb.

Zaman göstərir ki, Qoşulmama Hərəkatının nüfuzu getdikcə daha da artır. Üzv dövlətlərin də dəstəklədiyi kimi Azərbaycanın hərəkata sədrliyi dövrü daha uğurlu olmaqla yanaşı, mühüm töhfələrlə nəticələnib. Təsisatda Azərbaycanın təşəbbüsü ilə yeni şəbəkələr yaranıb ki, bunlar da həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində atılan addım kimi qiymətləndirilir.

### Dünyada elə bir qüvvə yoxdur ki, Azərbaycana nəyisə diktə edə bilsin

Göründüyü kimi, bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Hazırda Azərbaycan regionda və dünyada öz mövqelərini sürətlə möhkəmləndirən, sosial-iqtisadi baxımdan inkişaf edərək Avroatlantik məkana inteqrasiya olunan bir ölkədir.

Bununla yanaşı, müstəqil Azərbaycan həm qüdrətli, həm də dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır. Bütün bu uğurların yeganə səbəbi isə, əlbəttə ki, ölkə lideri İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətdir. Azərbaycana rəhbərlik etdiyi 20 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, mövcudluğu tarixində ölkəmiz heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb. Bu gün Azərbaycan siyasi-iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından dünyada ən qabaqcıl yerlərdədir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir. Bütün nailiyyətlər, möhtəşəm uğurlar İlham Əliyevin yüksəliş konsepsiyasının bəhrəsidir. Artıq heç kim Azərbaycanla təhdid dili ilə danışa bilməz. Bu fikirdə, bu niyyətdə olanlara İlham Əliyev çox mükəmməl şəkildə xəbərdarlıq edib: "Bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki mən Prezidentəm, belə qüvvə olmayacaqdır".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan diplomatiyasının daha bir qələbəsi

## Ermənistanın hər iki üzü də saxtadır

### Rəsmi İrəvan sülh istəsəydi, bədnam əməllərdən, təxribatlardan əl çəkərdi

**Otuz il ərzində ədalətə və beynəlxalq normalara məhəl qoymayan, münaqişənin dinc yolla həllində maraqlı olmayan Ermənistan 2020-ci ildə Azərbaycanın hərbi və siyasi gücü qarşısında diz çökdü. Bununla belə bölgədə yeni reallıqlar yaradan Azərbaycan Prezidenti İlham Əliyevin humanist və ədalətli siyasi xətti dəyişmədi, qalib dövlət kimi diktə edən tərəf olmasına baxmayaraq, hətta Ermənistan kimi terrorçu xislətli dövlətin taleyinə biganə yanaşmadı, bədnam qonşumuza təkmil sülh modelini təqdim etməklə, onlara tərəqqinin və inkişafın yolunu göstərdi.**




Amma atalar yaxşı deyib: "Düşmən qarışqa da olsa, onu fil saymaqda fayda var". O mənada ki ermənilərin hərbi və diplomatik gücü qarışqa boyda olsa da, onların məkri, hiyləsi, bədnam xisləti, doğrudan da, lap elə fildən də böyükdür.

Əgər belə olmasaydı, bu gün Ermənistan Azərbaycana qarşı şər-böhtan kampaniyasını, müxtəlif formalı təxribatlarını davam etdirməz və beynəlxalq ictimaiyyətə Laçın yolu ilə bağlı yalan məlumatlar çatdırmazdı. Həmçinin Hayastan "blokada" və ya "humanitar böhran" ilə bağlı ölkəmizə qarşı əsassız və sübutu olmayan iddialarla çıxış etməz, Azərbaycanın guya Qarabağda yaşayan erməniləri "soyqırımına" məruz qoymasını BMT TŞ-nin növbədənkənar iclasında rəsmiləşdirərək ölkəmiz əleyhinə sanksiyalar tətbiq olunmasına, Laçın yolundakı nəzarət-buraxılış məntəqəsinin ləğv edilməsinə çalışmazdı.

#### Ermənistan sülh danışıqlarına faşist ideologiyası ilə yanaşır

Avqustun 16-da BMT TŞ-də müzakirələrə başlamadan əvvəl Ermənistan Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Okamponun qərəzli və faktlara əsaslanmayan hesabatının beynəlxalq ictimaiyyəti ayağa qaldıracağına ümid etsə də, bu, puç oldu. Məlum oldu ki, revanşistlərin bu yalanla dolu hesabatı İrəvanda ayaq açsa da, oradan kənara çıxa bilməyib. Əksinə, iclasda məruzəçi dövlətlər tərəfindən səsləndirilən fikirlər, eləcə də Laçın dəhlizinə paralel olaraq Ağdam-Xankəndi yolundan istifadə edilməsinin mümkünlüyünün bildirilməsi Azərbaycanın maraqlarına cavab verib. İstənilən halda isə Ermənistanın bu cür riyakar davranışları bir daha sübut etdi ki, orada faşist ideologiyası dövlət siyasətinin hələ də ən əsas halqasıdır.

Bundan sonrakı mərhələdə isə Ermənistanın Azərbaycanla sülh danışıqlarına hansı üzlə qatılacağı, sülhdən danışılacaq masada hansı abır-həyasına qısılıb oturacağı hər kəsə məlumdur. Onlar 30 ilə yaxın BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə və TŞ sədrinin bir sıra bəyanatlarına məhəl qoymadıqları, onları diqqətə almadıqları halda həmin beynəlxalq qurumdan yardım diləyəndə hansı cildə girmişdilərsə, elə sülh masasında da həmin cilddə əyləşəcəklər. Ənənəvi olaraq yenə də özlərini bütün dünyaya "məzlum" və "yazıq" obrazında təqdim edəcək, sülhə hazır olduqları barədə min cür yalan uyduracaqlar.

Lakin heç kimə sirr deyil ki, Ermənistan hələ İkinci Qarabağ savaşından əvvəl də Azərbaycanla danışıqları imitasiya xətrinə apardığı kimi, bu gün də sülh danışıqlarına eyni məqsəd və eyni faşist ideologiyası ilə yanaşır. Hayların sözü ilə əməli bir-birilə heç zaman uyuşmur, sülhə hazır olduqlarını söyləsələr də, onların revanşist çıxışları, manipulyativ davranış və qarayaxma kampaniyaları bunun əksini sübut edir.

Belə anlaşılır ki, erməniləri başa düşmək üçün onların nəyi dediklərinə yox, nəyi demədiklərinə diqqət etmək lazımdır. Vətən savaşından sonra bir daha əmin olduq ki, "yalan"ın tərifi belədir: erməni nə deyirsə, o, ağ yalandır.

#### Düşmənin başını əzmək üçün bircə yumruq da kifayətdir

Azərbaycan tərəfi yaxşı başa düşür ki, bir dövlətin, bir xalqın azad yaşaması üçün digərlərinin kölə olmasına ehtiyac yoxdur. Ona görə də humanizm və ədalətlilik prinsiplərinə sadiqliyi dövlət siyasətinin prioritetinə çevirən ölkə kimi daim dinc birgəyaşayışı təşviq edir, Qarabağda yaşayan sadə ermənilərə cəmiyyətimizə reinteqrasiya təklifini irəli sürür.

Nə olursa-olsun, 10 noyabr üçtərəfli Bəyanatına zidd şəkildə separatçılara gizlin yollarla silah-sursat daşıyan Ermənistan və onun havadarlarının bu məqsədlə Laçın yolundan istifadəsinə isə qarşı çıxır, humanitar yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunu təklif edir. Nəzərə almaq lazımdır ki, tərəfimizdən bəyan edilən təkliflər təkcə Azərbaycan üçün deyil, elə ən çox Ermənistanın özü üçün yaxşı gələcək vəd edir.

Belə olan halda Ermənistan Azərbaycanla sülh danışıqları aparmayaraq və ya bunu yalnız imitasiya xətrinə edərək özünü rəzil duruma saldığını anlamalı, ölkəmizin təkmil sülh şərtlərini qəbul etməlidir. Əks təqdirdə xalqımız və dövlətimiz "dəmir yumruğ"unun gücünə arxayındır, yenidən müharibə istəyən Ermənistanın başını əzmək üçün çox yox, bir yumruq da kifayətdir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Qəribədir ki, dalana dirənən Ermənistan müharibəyə hazırlaşır

**Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı şanlı zəfərdən sonra hərbi, siyasi, iqtisadi cəhətdən ağır duruma düşən Ermənistana bir şans verərək sülh təklif edib.**

Azərbaycanın təklif etdiyi sülh şərtlərindən biri də nəqliyyat və kommunikasiyaların açılması, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran başqa sahələrdə əməkdaşlığın qurulmasıdır. Bu şərt Zəngəzur nəqliyyat dəhlizinin açılmasını da əhatə edir. Hansı ki Ermənistanın baş nazirinin yalvararaq imzaladığı, sonradan müxtəlif bəhanələrlə şərtlərini yerinə yetirməkdən boyun qaçırdığı üçtərəfli Bəyanatda da öz əksini tapıb.

Zəngəzur dəhlizinin açılması Azərbaycan ərazisindən keçməklə Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb dəhlizinin bir hissəsinə çevriləcək, Azərbaycan Avropa iqtisadi halqasını Şərqi Asiya ilə birləşdirən yeni bir qovşaq olacaq. Bu layihənin Cənubi Qafqaza gətirəcəyi iqtisadi dividenddən regionun bütün ölkələrinin bəhrələnə biləcəyini izah etməyə qəti ehtiyac yoxdur. Layihənin işə düşməsi daha çox iqtisadi cəhətdən tənəzzül yaşayan Ermənistana lazımdır. Amma Ermənistan nə edir? Öz məkrli xislətindən əl çəkmir. Yenidən revanş götürmək, itirdiklərini hərbi yolla bərpa etmək "mərəzinə" tutulub. Sülh danışıqlarını lüzumsuz yerə uzadıb danışıqlar adı ilə siyasi manipuilyasiya edib. Üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək əvəzinə daha çox silahlanmaya, problemi yenidən güc yolu ilə həll etmək niyyətinə düşüb. Hindistandan və İrandan yeni silahlar alıb, müharibə tədarükünə başlayır. Eyni zamanda ermənilər məkrli niyyətlərindən əl çəkməyərək ölkəmizin əleyhinə apardıqları iyrənc təbliğatı gücləndirirlər.

Tez-tez maskasını dəyişmək ermənilərin xislətindədir. Müharibədən məğlub çıxan Ermənistan və onun sifarışlərini yerinə yetirən Qarabağdakı qulbeçələri bu dəfə "yazıq", "məzlum" donu geyib, həşir qoparıb "blokadada qaldıqlarını", "humanitar fəlakət" yaşadıqlarını, "acından qırıldıqlarını" erməni lobbisinin maddi vəsaiti hesabına ələ aldıqları KİV-də tirajladırlar. Məsələni bir qədər də şişirdib Fransa Prezidenti Makronun vasitəçiliyi ilə BMT-də müzakirəyə çıxardırlar.

Məsələnin BMT Təhlükəsizlik Şurasında müzakirəsi ermənilərə istədiklərini vermədi. BMT-dən istədiyini ala bilməyən Ermənistanda gərginlik bir qədər də artdı.

Ermənistan rəhbərliyi və Qarabağdakı separatçılar "humanitar yük" adı ilə sərhədlərimizə cəmlədikləri avtomobil konvoyunun Laçın yolu ilə ərazilərimizə buraxılmayacağını bilirdilər. Əvvəlcədən onlara alternativ olaraq Ağdam-Xankəndi yolu təklif olunmuşdu. Ermənilər Azərbaycan əleyhinə təbliğat aparmaq, "humanitar böhran" şousu yaratmaq üçün bu oyunu qurmuşdular. Nəticəsi də bəlli oldu. Bundan sonra avtomobil konvoyunu necə geri qaytaracaqları barədə özləri düşünsünlər. Məsələ burasındadır ki, Ermənistan tutduğu hərəkətdən utanmaq əvəzinə maskasını dəyişib öz mənfur sifətini göstərdi.

BMT Təhlükəsizlik Şurasında aparılan müzakirənin səhərisi Qarabağda "acından ölən", "humanitar fəlakət" yaşayan xuntanın rəhbəri Araik Arutyunyan "xalq könüllü silahlı dəstəsi"nin bir qrup döyüşçüləri ilə toplantı keçirib. Toplantıda "mövcud çətinliklərin öhdəsindən gəlmək üçün döyüşçülərin üzərinə düşən vəzifələr və təhlükəsizliyin təmin edilməsi, bütün səylərin birləşdirilməsinin zəruriliyi" vurğulanıb.

Bir neçə gündür ki, elektron izləmə vasitələri ilə aparılan müşahidələr zamanı Qarabağda olan silahlı birləşmələrin yerlərini dəyişmələri məlum olub. "Xalq könüllü silahlı dəstəsi"nin üzvləri ilə görüş keçirməklə kifayətlənməyən separatçıların başçısı ertəsi gün - avqustun 18-də "respublika müdafiə ordusu" adlanan silahlı qüvvələrin komanda heyəti ilə də görüş keçirib. İyirmi nəfərlik komanda heyəti ilə baş tutan görüşdə "respublikanın müdafiə qabiliyyəti" müzakirə edilib. Bundan iki gün əvvəl isə yeni "spiker", general-mayor daşnak Kamo Vardanyan hərbçilərlə görüş keçirmişdir.

Burada bir məsələyə xüsusi diqqət yetirməyi vacib sayırıq. Bu o deməkdir ki, Ermənistan və separatçılar "məzlum", "yazıq" erməni oyununun nəticə vermədiyini anlayıb ritorikanı dəyişərək 44 günlük Vətən müharibəsindəki məğlubiyyətdən sonra yenidən güc toplamaq həvəsinə düşüblər. Deyə bilərik ki, artıq Ermənistan cəmiyyətində müharibəyə hazırlaşmaq barəsində açıq söhbət gedir.

Heç kimə sirr deyil ki, Nikol Paşinyanın sülh müqaviləsini uzatmaqda məqsədi zaman qazanmaq, yenidən güc toplamaq idi. Şübhəsiz ki, uydurma "humanitar böhran" şousu yaradıb, BMT-də tamaşaya qoyanlar Ermənistana yeni vədlər veriblər. Dünən "acından öldüklərini", "humanitar fəlakət" yaşadıqlarını, "yağ, ərzaq, çörək dalınca uzaq-uzaq yerlərə getdiklərini" iddia edən bir millətin bu gün müharibəyə hazırlaşması qəribə görünür. Bunu edənlər utanmaq hissindən məhrum olmuş ermənilərdir.

Azərbaycan dəfələrlə bəyan etdiyi kimi, heç kimin ərazisində gözü olmayan, regionda sülhə, sabitliyə daha çox töhfə verən, eyni zamanda prinsiplərinə sadiq, müstəqil siyasət aparan bir ölkədir. Bizi tutduğumuz haqq yolundan nə erməni kələyi, nə Fransa küləyi sapdıra bilməz. Sülh danışıqlarını pozub, zorun gücü ilə danışmaq həvəsinə düşənlər anlamalıdırlar ki, onlara verilən son şansdan istifadə edə bilməsələr, günah onların özlərindədir. Torpaqlarımızda bizimlə silahın dili ilə danışmaq istəyənlər düşünsünlər ki, belə bir səhvə təkrar yol verərlərsə, yalnız Bakıdakı Qənimətlər Parkının ərazilərini genişləndirə bilərlər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# İkili standartların ABŞ nümunəsi

### Ağ Evin sülh danışıqları prosesində vasitəçi olmaq həvəsi heç də xoşniyyətli deyil

**İkinci Qarabağ müharibəsindəki şanlı zəfərdən sonra bəzi dairələr Azərbaycanın qələbəsinə qısqanclıqla yanaşırlar. Çünki həmin qüvvələr regionun lider ölkəsi olan Azərbaycanın daha da güclənməsini həzm edə bilmirlər. Elə Vətən müharibəsindən sonra Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması üçün danışıqlara vasitəçilik etmək istəyi də proseslərə nəzarəti əldə saxlamaq istəyindən başqa bir şey deyildi. Bunu Ermənistanı təxribatlara daha da həvəsləndirən həmin dairələrin fəaliyyəti də sübut edir.**

#### ABŞ Qafqazda sülhün təmin olunmasında maraqlı deyil

Sülh danışıqları prosesinə vasitəçilik etmək üçün Avropa İttifaqı, Rusiya və ABŞ-nin sanki yarışa çıxdığı günün reallığıdır. Hadisələr göstərir ki, Avropa İttifaqının Ermənistana göndərdiyi xüsusi missiya son günlər Qarabağdakı separatçıların təxribatlarına nəinki göz yumur, hətta onların hərəkətlərinə haqq da qazandırır. Bunu son iki həftədə missiyanın yaydığı açıqlama da bir daha təsdiqləyir.

İki ölkə arasındakı sülh danışıqlarında vasitəçi olmaq istəyini bildirən ABŞ isə bir tərəfdən XİN başçılarının görüşlərini təşkil edərək guya prosesə töhfə verməyə çalışdığını nümayiş etdirir, digər tərəfdən isə BMT Təhlükəsizlik Şurasında Ermənistanın uydurma yalanlarına haqq qazandırmaqla ikiüzlülüyünü göstərir. Bütün bunlar isə məkrli siyasətin, ikili standartların bariz nümunəsidir. Necə ola bilər ki, Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin bağlanmasında danışıqlar masasına oturan, bu istiqamətdə səy göstərəcəyini deyən ölkə yalnız ermənipərəst mövqe sərgiləyir. Bu mərəz onların rəsmi şəxslərinin çıxışlarından tutmuş media orqanlarında dərc olunan yazılara qədər özünü göstərir.

Avqustun 16-da Ermənistanın Laçın yolunun guya "blokadada" olması, "humanitar fəlakət"lə bağlı BMT Təhlükəsizlik Şurasına etdiyi müraciət nəticəsində aparılan müzakirələr bunu bir daha təsdiqlədi. ABŞ nümayəndəsinin həqiqətə uyğun olmayan çıxışı Ağ Evin ikili standartlar siyasətinin bir daha nümayişi oldu.

ABŞ Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün səy göstərdiyini ifadə etsə də, əslində, belə deyil. Bu ölkə uzun illər olduğu kimi, indi də Cənubi Qafqaz regionunda sülhün, təhlükəsizliyin təmin olunmasında maraqlı deyil. Hətta deyərdik ki, ABŞ regionda münaqişə şəraitinin qalması üçün ermənilərdən bir alət kimi istifadə edir.

#### Danışıqlarda vasitəçi olmaq istəyən Ağ Evin məramı xoşdurmu?

Son vaxtlar Ermənistanın düzəltdiyi "humanitar fəlakət" şousu, həmçinin yeni təxribatlara hazırlıqları onun özbaşına atdığı addımlar deyil. 44 günlük İkinci Qarabağ savaşında ağır məğlubiyyətə uğrayan Ermənistanın Qarabağda qalan qanunsuz silahlı birləşmələrini hərbi sursatla təchiz etməyə nə imkanı, nə də gücü var.

Təbii ki, bu təchizatda ona havadarları yardım edir. Ermənistanı silahlandıraraq, təxribatlara təhrik edərək regionda yeni müharibənin alovlanmasına və münaqişə ocağının yaranmasına çalışırlar. Çünki tarixdən də bəllidir ki, Cənubi Qafqaz hər zaman müxtəlif maraqların toqquşduğu region olub.



Son zamanlar beynəlxalq arenada Azərbaycan əleyhinə qərəzli mövqenin formalaşdırılmasına cəhdlərin artdığı müşahidə olunur. Erməni diasporunun güclü olduğu ölkələrdə müəyyən dairələr maliyyə təminatı hesabına ölkəmizə qarşı qərəzli, ədalətsiz mövqedən çıxış edir, anti-Azərbaycan kampaniyası aparırlar. Bununla onlar Azərbaycana qarşı mənfi fikirlər formalaşdırmağa çalışırlar.

ABŞ-nin "Vaşinqton Post" qəzetində Azərbaycan əleyhinə silsilə məqalələrin dərci də bir daha bu dövlətin ölkəmizə qarşı ədalətsiz, ikiüzlü siyasətindən xəbər verir. Necə olur ki, 30 il Ermənistanın Azərbaycan torpaqlarını işğalda saxlamasına göz yuman, haqqı tapdanan, soyqırımlarına, qətliamlara məruz qalan, evindən, yurdundan didərgin salınan azərbaycanlıların hüquqlarını, haqlarını tanımayanlar, bununla bağlı heç vaxt mövqe nümayiş etdirməyənlər, Ermənistanın özbaşınalıqlarına heç bir reaksiya verməyən ölkələr, beynəlxalq təşkilatlar, həmçinin KİV Azərbaycan haqlı olduğu halda səslərini çıxarmırlar. Hələ üstəlik əleyhimizə yazılarla çıxış edirlər. "Vaşinqton Post" cəmi bir həftədə Azərbaycan əleyhinə iki məqalə dərc edib. Burada erməni lobbisinin gücü özünü göstərsə də, bəs insan hüquq və haqlarından danışan ABŞ rəsmiləri niyə göz yumurlar? Necə olur ki, Azərbaycana gələndə onlar kor və lal olurlar?!

Bütün bunlar bir daha ABŞ-nin Azərbaycana qarşı qərəzli, ədalətsiz mövqedə dayandığını təsdiqləyir. Azərbaycan həm 30 il ərzində, həm də Vətən müharibəsindən sonra daim sülhün tərəfdarı, regionda təhlükəsizliyin, əmin-amanlığın təmin olunmasında maraqlı olduğunu bəyan edib. Müharibədə qalib tərəf olmasına baxmayaraq, Ermənistana sülh təklif edib.

Prezident İlham Əliyev bütün çıxışlarında qeyd edir ki, vasitəçinin kim olmasından asılı olmayaraq, Azərbaycan sülh istiqamətində olan bütün danışıqlarda maraqlıdır.

Zaman özü hər şeyi açıq-aydın göstərir. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində danışıqlarda vasitəçilik etmək istəyənlərin sözləri və əməllərinin bir olmadığı tam ortadadır.

Ancaq istənilən halda Azərbaycana hər hansı bir təzyiqin, təhdidin edilməsi mənasızdır. Çünki tarixinin ən qüdrətli Azərbaycanı kiminsə diktəsi ilə siyasət yürütmür. Ölkənin lideri Prezident İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı dünyada etibarlı tərəfdaş kimi tanıdıb və nüfuzunu yüksəldib. Bundan sonra da kiminsə ölkəmizə hər hansı formada təzyiq göstərməsi qeyri-mümkündür.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Avtomobil nəqliyyatı haqqında" (Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599; 2010, № 4, maddə 276, № 10, maddə 841; 2013, № 11, maddə 1302; 2014, № 4, maddə 342; 2015, № 8, maddə 903, № 12, maddə 1439; 2016, № 2 (II kitab), maddə 221; 2017, № 2, maddə 140, № 12 (I kitab), maddə 2211; 2018, № 1, maddə 22, № 12 (I kitab), maddələr 2510, 2517; 2019, № 3, maddə 374, № 8, maddə 1379; 2020, № 6, maddə 663; 2021, № 1, maddələr 1, 11; 2023, № 4, maddələr 452, 462) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambulaya "orqanları" sözündən sonra "(qurumları)" sözü əlavə edilsin;

1.2. 1-ci maddə üzrə:

1.2.1.1.0.2-ci maddədə "infrastrukturundan" sözü "infrastruktur obyektlərindən" sözləri ilə əvəz edilsin;

1.2.2. 1.0.6-cı maddədə "infrastrukturu" sözü "infrastruktur obyektləri" sözləri ilə əvəz edilsin və həmin maddəyə "məntəqələri," sözündən sonra "avtomobil nəqliyyatı parkları," sözləri əlavə edilsin;

1.2.3. 1.0.9-1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanı tərəfindən uçota alınan" sözləri"müvafiq icazəsi olan" sözləri ilə əvəz edilsin;

1.2.4. aşağıdakı məzmunda 1.0.17-1-ci maddə əlavə edilsin:

"1.0.17-1. **taksometr -** taksi minik avtomobilinin qət etdiyi məsafənin və boşdayanmanın müddətinin uçotunun aparılmasını, gediş haqqının məbləğinin hesablanmasınıvə bu barədə sərnişinin məlumatlandırılmasını təmin edən, taksi minik avtomobili üçün nəzərdə tutulmuş fiskal yaddaşlı xüsusi ölçü cihazı və ya proqram təminatı;";

1.2.5. 1.0.24-cü maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.24. **analoqtaxoqraf -** bu Qanunun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq qeydə almaq məqsədilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektromexaniki nəzarət cihazı;";

1.2.6. aşağıdakı məzmunda 1.0.25-1.0.36-cı maddələr əlavə edilsin:

"1.0.25. **rəqəmsal taxoqraf -** bu Qanunun 57-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, avtomatik rejimdə avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq qeydə almaq məqsədilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektron nəzarət cihazı;

1.0.26. **rəqəmsal taxoqraf kartı -** sürücünün iş və istirahət dövrlərinə dair məlumatların, habelə rəqəmsal taxoqrafla işləmək üçün tələb olunan digər məlumatların saxlanılmasını təmin edən inteqral mikrosxemli kart;

1.0.27. **sürücünün taxoqraf kartı -** avtonəqliyyat vasitəsini idarə edərkən sürücünün iş və istirahət dövrlərinə dair müvafiq məlumatların saxlanılması və sürücünün şəxsiyyətinin eyniləşdirilməsi üçün istifadə edilən rəqəmsal kart;

1.0.28. **operatorun taxoqraf kartı -** sürücünün iş və istirahət dövrlərinə dair müvafiq məlumatların taxoqrafdan yüklənilməsi üçün istifadə edilən operatora məxsus rəqəmsal kart;

1.0.29. **emalatxana taxoqraf kartı -** rəqəmsal taxoqrafların quraşdırılması, yoxlanılması, təmiri, sınaqlarının keçirilməsi, kalibrlənməsi və onlara texniki xidmətin göstərilməsi, eyni zamanda rəqəmsal taxoqrafdan məlumatların yüklənilməsi üçün istifadə edilən rəqəmsal kart;

1.0.30. **nəzarətçi taxoqraf kartı -** sürücünün iş və istirahət dövrlərinə dair müvafiq məlumatların taxoqrafdan yüklənilməsi üçün istifadə edilən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əməkdaşlarına məxsus rəqəmsal kart;

1.0.31. **formulyar -** qeyri-müntəzəm sərnişin daşımalarında sərnişinlər barədə məlumatı əks etdirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində elektron qaydada doldurulan sənəd;

1.0.32. **bilet-uçot vərəqi -** şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşımalarında satılmış biletlərin uçotunun aparıldığı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində elektron qaydada doldurulan sənəd;

1.0.33. **taksi sifarişi xidməti -** telekommunikasiya vasitələrindən istifadə etməklə, taksi minik avtomobili sifariş etmək istəyən şəxsdən sifarişi qəbul edib həmin daşımaları həyata keçirən şəxsə ötürülməsi ilə bağlı ödənişli xidmət;

1.0.34. **taksi sifarişi operatoru -** taksi minik avtomobilləri ilə sərnişin daşımalarını həyata keçirən şəxslərə taksi sifarişi xidməti göstərən hüquqi şəxs və ya fərdi sahibkar;

1.0.35. **buraxılış vəsiqəsi -** bu Qanunun 13-cü maddəsinə uyğun olaraq, hüquqi şəxslərin və ya fərdi sahibkarların sərnişin və ya yük daşımaları sahəsində fəaliyyət göstərməsi üçün verilən icazə;

1.0.36. **buraxılış kartı -** buraxılış vəsiqəsi olan hüquqi şəxslər və ya fərdi sahibkarların mülkiyyət, icarə və ya istifadə hüququ ilə malik olduğu nəqliyyat vasitələrinə verilən, icazənin əlavəsi olan kart.";

1.3. 3.1-ci maddəyə "orqanları" sözündən sonra "(qurumları)" sözü əlavə edilsin və həmin maddədə "nəqliyyat" sözü "avtomobil nəqliyyatı" sözləri ilə əvəz edilsin;

1.4. 4.0.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.0.7-ci maddə əlavə edilsin:

"4.0.7. ölkədaxili sifarişli daşımalar - taksi minik avtomobili ilə sərnişin daşımaları istisna olmaqla qeyri-müntəzəm sərnişin daşımaları və ölkədaxili yük daşımaları.";

1.5. 6-cı maddə üzrə:

1.5.1. adında "infrastrukturuna" sözü "infrastruktur obyektlərinə" sözləri ilə əvəz edilsin;

1.5.2. 6.4-cü maddədə "infrastrukturu" sözü "infrastruktur obyektləri" sözləri ilə əvəz edilsin;

1.5.3. 6.5-ci maddəyə "məntəqələrinin," sözündən sonra "avtomobilnəqliyyatı parklarının," sözləri əlavə edilsin;

1.5.4. aşağıdakı məzmunda 6.6-cı maddə əlavə edilsin:

"6.6. Müvafiq yol-nəqliyyat, sosial, mədəni, ictimai-iaşə, inzibati, mühəndis-kommunikasiya təminatı və digər bu kimi xidmətlərin kompleks qaydada təqdim edilməsi məqsədilə avtomobil nəqliyyatı parkları yaradıla bilər.";

1.6. aşağıdakı məzmunda 7.1-1-ci maddə əlavə edilsin:

"7.1-1. Əhalisinin sayı üç yüz min nəfərədək olan yaşayış məntəqələrində bir, əhalisinin sayı üç yüz min nəfərdən çox olan yaşayış məntəqələrində iki və ya daha çox avtovağzal (avtostansiya) təşkil oluna bilər.";

1.7. 9-cu maddə üzrə:

1.7.1. 9.2-ci maddədən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın;

1.7.2. aşağıdakı məzmunda 9.2-1-ci və 9.2-2-ci maddələr əlavə edilsin:

"9.2-1. Sürücü, operator, emalatxana və ya nəzarətçi taxoqraf kartlarının verilməsi və ya yenilənməsi, müvafiq olaraq sürücünün, operatorun, emalatxananın və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vəsaiti hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla), habelə bu sahədə fəaliyyət göstərən digər fiziki və ya hüquqi şəxslərlə bağlanılmış müqavilə əsasında həyata keçirilir.

9.2-2. Bu Qanunun 57-1-ci maddəsinə uyğun olaraq, operatorlar, taxoqrafların quraşdırılması, yoxlanılması, təmiri, sınağı, kalibrlənməsi və onlara texniki xidmət göstərilməsi ilə bağlı işləri yerinə yetirən xidmət mərkəzlərinin (servis emalatxanalarının) texniki heyət üzvləri, operatorların məsul şəxsləri və sürücüləri, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əməkdaşıtaxoqrafdan istifadə, ona xidmət və ya rəqəmsal taxoqraf kartından istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi xüsusi proqram üzrə hazırlıq keçməlidir. Xüsusi proqram üzrə hazırlıq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq təhsil müəssisələri tərəfindən müqavilə əsasında həyata keçirilir.";

1.7.3.9.3-cü maddədən "və ölkədaxili" sözləri çıxarılsın;

1.8.13-15-1-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 13. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində icazə**

13.1. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları xidmətlərinin istehlakçılarının qanuni maraqlarının qorunması, bu sahədə haqsız rəqabət və inhisarçılığın qarşısının alınması, daşımaların təhlükəsizliyinin, ətraf mühitin və əməyin mühafizəsinin təmin olunması məqsədilə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları ilə məşğul olmaq istəyən hüquqi şəxslər və fərdi sahibkarlar bu Qanunun və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) aşağıdakı icazələri almalıdırlar:

13.1.1. Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün operatorlara verilən beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsi;

13.1.2. ölkədaxili sifarişli daşımalara buraxılış vəsiqəsi;

13.1.3. taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi;

13.1.4. taksi sifarişi operatoru fəaliyyətinə icazə;

13.1.5. avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrut üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında müqavilə.

13.2. Bu Qanunun 13.1-ci maddəsində nəzərdə tutulan fəaliyyətlərin icazə olmadan və ya digər şəxslərə məxsus icazə əsasında yerinə yetirilməsi qadağandır.

13.3. Bu Qanunun 13.1.1 - 13.1.4-cü maddələrində nəzərdə tutulan icazələr 7 (yeddi) il, bu Qanunun 13.1.5-ci maddəsində nəzərdə tutulan icazə isə bu Qanunun 21.5-ci maddəsində nəzərdə tutulan müddətə verilir.

13.4. Bu Qanunun 13.1.1-ci,13.1.3-cü, 13.1.4-cü maddələrində nəzərdə tutulan icazələrin və buraxılış kartlarının verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət rüsumu tutulur.

**Maddə 14. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində icazənin alınması üçün tələb olunan sənədlər (məlumatlar)**

14.1. Bu Qanunun 13.1.1-ci maddəsində nəzərdə tutulan icazəni almaq üçün hüquqi şəxs və ya fərdi sahibkar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş sənədlərdən başqa, aşağıdakı sənədləri (skan edərək) və məlumatları elektron qaydada təqdim edir:

14.1.1. müraciət edən şəxs hüquqi şəxs olduqda, onun idarəetmə orqanının rəhbərləri haqqında məlumatları (soyadı, adı, atasının adı və vəzifəsi);

14.1.2. məsul şəxslər haqqında məlumatları (soyadı, adı, atasının adı və fərdi identifikasiya nömrəsi), məsul şəxslərin müəyyən olunmasını təsdiq edən sənədləri;

14.1.3. beynəlxalq daşımalarda istifadə edilməsi nəzərdə tutulan, mülkiyyət, istifadə və ya icarə hüququ əsasında malik olduğu avtonəqliyyat vasitələrinin dövlət qeydiyyat şəhadətnamələrini;

14.1.4. barəsində məlumat təqdim olunan avtonəqliyyat vasitələrindən hər biri üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədləri;

14.1.5. sürücüləri haqqında məlumatları (adı, soyadı və atasının adı), sürücülərinin müvafiq kateqoriyalı (altkateqoriyalı) sürücülük vəsiqələrini və əmək müqavilələrinə dair məlumatı (operator ilə sürücü eyni şəxs olan hal istisna olmaqla);

14.1.6. avtonəqliyyat vasitələrinə texniki xidmət göstərilməsi, onların saz vəziyyətdə saxlanılması və təmiri üçün texniki-təmir stansiyasının (sahəsinin) olmasını təsdiq edən sənədləri və ya belə xidmətləri göstərəcək şəxslə bağlanılmış müqaviləni;

14.1.7. fərdi sahibkarın və ya hüquqi şəxsin idarəetmə orqanının rəhbərlərinin, məsul şəxslərinin həyat və sağlamlıq əleyhinə, mülkiyyət əleyhinə, iqtisadi fəaliyyət sahəsində, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə, insan alveri və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar, qulluq mənafeyi əleyhinə olan ağır və (və ya) xüsusilə ağır cinayətlərə görə məhkumluğunun olmaması, müvafiq vəzifəni tutması və ya müvafiq fəaliyyətlə məşğul olması hüququndan məhrumetmə ilə bağlı məhkəmə qərarının olmamasına dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən arayışı;

14.1.8.ərizənin verildiyi günədək kənar (müstəqil) auditor tərəfindən təsdiq edilmiş son hesabat dövrünə aid maliyyə hesabatlarını, aktivləri barədə məlumatı və ya maliyyə vəziyyəti barədə bank arayışını;

14.1.9. operatorun məsul şəxslərinin, habelə sürücülərinin bu Qanunun 50.2-ci maddəsinə uyğun olaraq hazırlıqdan keçməsini təsdiq edən sənədləri;

14.1.10. operatorun və sürücülərin taxoqraf kartlarının olması barədə məlumatı;

14.1.11. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.5-ci maddəsinə müvafiq olaraq, dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədi (bu maddə ilə nəzərdə tutulan digər sənədlərdə çatışmazlıqlar müəyyən edilmədikdə təqdim olunur).

14.2. Bu Qanunun 13.1.2-ci maddəsində nəzərdə tutulan icazəni almaq üçün hüquqi şəxs və ya fərdi sahibkar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) aşağıdakı sənədləri (skan edərək) və məlumatları elektron qaydada təqdim edir:

14.2.1. fərdi sahibkar olduqda, şəxsiyyətini təsdiq edən sənədi, hüquqi şəxs olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı;

14.2.2. vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnaməni;

14.2.3. hüquqi şəxsin və ya fərdi sahibkarın mülkiyyət, istifadə və ya icarə hüququ əsasında malik olduğu avtonəqliyyat vasitələrinin dövlət qeydiyyat şəhadətnamələrini.

14.3. Bu Qanunun 13.1.3-cü və 13.1.5-ci maddələrində nəzərdə tutulan icazələrin alınması üçün hüquqi şəxs və ya fərdi sahibkar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş sənədlərdən başqa, aşağıdakı sənədləri (skan edərək) və məlumatları elektron qaydada təqdim edir:

14.3.1. sürücülərin müvafiq kateqoriyalı (altkateqoriyalı) sürücülük vəsiqələrini;

14.3.2. hüquqi şəxsin və ya fərdi sahibkarın mülkiyyət, istifadə və ya icarə hüququ əsasında malik olduğu avtonəqliyyat vasitələrinin dövlət qeydiyyat şəhadətnamələrini;

14.3.3. ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirən sürücülərin, o cümlədən taksi minik avtomobillərinin sürücülərinin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədləri;

14.3.4. avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasının, sürücülərin reysqabağı tibbi müayinəsinin təşkili imkanı barədə sənədləri və ya müvafiq xidmətlərdən istifadə olunmasına dair texniki məntəqəvə ya tibb məntəqəsi ilə müqavilələri;

14.3.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi hallarda müntəzəm sərnişin daşımalarının həyata keçirilməsi nəzərdə tutulan avtonəqliyyat vasitələrinin gediş haqqının elektron qaydada ödənilməsi üçün ödəniş alətləri ilə təchiz olunması barədə məlumatı;

14.3.6. taksi minik avtomobillərində taksometrin (taksometr funksiyalarının proqram təminatı əsasında həyata keçirildiyi hallar istisna olmaqla) metroloji yoxlamadan keçməsini təsdiq edən şəhadətnaməni;

14.3.7. sürücünün narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehlakı hallarının müəyyən edilməsi üçün aparılan tibbi müayinənin nəticəsi barədə məlumatı;

14.3.8.beynəlxalq marşrut üzrə müntəzəm sərnişin daşınmasına münasibətdə, həmçinin bu Qanunun 14.1.1-ci, 14.1.2-ci, 14.1.5-ci (sürücülərlə bağlanmış əmək müqavilələrinə münasibətdə), 14.1.6 - 14.1.10-cu maddələrində nəzərdə tutulan sənədləri və məlumatları;

14.3.9. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.5-ci maddəsinə müvafiq olaraq, dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədi(bu maddə ilə nəzərdə tutulan digər sənədlərdə çatışmazlıqlar müəyyən edilmədikdə təqdim olunur).

14.4. Bu Qanunun 13.1.4-cü maddəsində nəzərdə tutulan icazəni almaq istəyən hüquqi şəxslər və ya fərdi sahibkar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş sənədlərdən başqa, aşağıdakı sənədləri (skan edərək) və məlumatları elektron qaydada təqdim edir:

14.4.1. müraciət edən şəxsin internet informasiya ehtiyatı və taksi sifarişi operatoru fəaliyyəti üçün istifadə etdiyi bütün telekommunikasiya vasitələri, o cümlədən mobil tətbiqlər barədə məlumatları;

14.4.2. taksi sifarişi xidmətinin göstərilməsi üçün Azərbaycan Respublikasının ərazisində yerləşən filial və ya nümayəndəliyi barədə məlumatları;

14.4.3. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.5-ci maddəsinə müvafiq olaraq, dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədi (bu maddə ilə nəzərdə tutulan digər sənədlərdə çatışmazlıqlar müəyyən edilmədikdə təqdim olunur).

14.5. Bu Qanunun 14.1 - 14.4-cü maddələrində qeyd olunan sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar müraciət edən şəxsdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən şəxs tərəfindən təmin edilir.

**Maddə 15. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına icazənin tətbiqi xüsusiyyətləri**

15.1. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına dair bu Qanunun 13.1-ci maddəsində nəzərdə tutulmuş icazələr və onların əlavələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən elektron qaydada verilir. İcazəni almış şəxs həmin icazəni çap edə və kağız daşıyıcıda istifadə edə bilər.

15.2. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına icazə verildikdə daşıyıcıya elektron qaydada avtonəqliyyat vasitələrinin sayına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən buraxılış kartı verilir. Avtonəqliyyat vasitələrinin sayı artdıqda, yaxud avtonəqliyyat vasitəsi başqası ilə əvəz olunduqda, hüquqi şəxs və ya fərdi sahibkar yeni buraxılış kartının verilməsi haqqında müraciət etməlidir. Buraxılış kartı daşıyıcının həmin avtonəqliyyat vasitəsi ilə sərnişin və yük daşımalarını həyata keçirmək üçün icazəyə malik olduğunu təsdiq edir. Buraxılış kartının hüquqi qüvvəsinin dayandırılması, bərpası, ləğvi və yeni buraxılış kartının verilməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

15.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunda və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallarda və qaydada avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına verilmiş icazənin dublikatını verir, icazəni yenidən rəsmiləşdirir, dayandırır, bərpa edir və ləğv edir.

15.4. Avtomobil nəqliyyatı xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması, habelə ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımalarda nəqliyyat növləri üzrə sərnişin axınlarının paylanmasının optimallaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün icazələrin və onların əlavələrinin sayına məhdudiyyətlər tətbiq edə bilər. Məhdudiyyətlər tətbiq edilməzdən 60 (altmış) gün əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müvafiq əsasları göstərməklə, mediada məlumat verməlidir.

15.5. Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi tələblərə uyğun olmalıdır. Həmin tələblərə cavab verməyən avtonəqliyyat vasitəsinə buraxılış kartının verilməsindən imtina olunur, verilmiş buraxılış kartının isə hüquqi qüvvəsi dayandırılır və ya o, ləğv edilir.

**Maddə 15-1. Taksi sifarişi operatorları**

15-1.1. Taksi sifarişi operatorları, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin tələbləri nəzərə alınmaqla, fərdi məlumatların informasiya sistemlərini dövlət qeydiyyatından keçirməli və həmin Qanunun 5.9-cu maddəsinə əsasən fərdi məlumatların mühafizəsi ilə bağlı tələblərə riayət etməlidirlər. Taksi sifarişi operatorları hər bir taksi sifarişi üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən adsızlaşdırılmış məlumatların, o cümlədən sürücünün iş və istirahət rejimlərinə riayət olunmasına nəzarət məqsədilə sürücü barədə məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə real vaxt rejimində ötürülməsini təmin etməlidirlər.

15-1.2. Taksi sifarişi operatoru tərəfindən taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi və avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasının, sürücülərin reysqabağı tibbi müayinəsinin təşkili imkanı barədə sənədləri və ya müvafiq xidmətlərdən istifadə olunmasına dair texniki məntəqə və ya tibb məntəqəsi ilə müqavilələri olmayan daşıyıcıya, habelə müvafiq buraxılış kartı və taksi minik avtomobillərinin sürücülərinin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədi olmayan sürücüyə taksi sifarişi xidmətinin göstərilməsi qadağandır.";

1.9.20-ci maddə üzrə:

1.9.1. 20.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"20.1.Taksi minik avtomobilləri ilə sərnişin daşımaları taksometrin göstəriciləri və ya taksi sifarişi xidmətinə qoşulduqda, taksometr funksiyalarını yerinə yetirən proqram təminatı vasitəsilə müəyyən olunan qiymət üzrə ödəniş əsasında, müvafiq buraxılış vəsiqəsi və buraxılış kartı olan daşıyıcılar tərəfindən yerinə yetirilir.Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi olmadan və ya digər şəxslərə məxsus buraxılış vəsiqəsi əsasında taksi minik avtomobilləri ilə sərnişin daşımalarının yerinə yetirilməsi, habelə buraxılış kartı olmayan nəqliyyat vasitələrinin sərnişindaşımada istismar edilməsi, həmçinin taksometrin göstəriciləri və ya taksometr funksiyalarını yerinə yetirən proqram təminatı vasitəsilə müəyyən olunan qiymətdən əlavə ödənişin tələb edilməsi qadağandır.";

1.9.2. 20.2-ci maddəyə "daşımaları" sözündən sonra "buraxılış kartında" sözləri əlavə edilsin;

1.10.21-ci maddə üzrə:

1.10.1.21.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müsabiqədə iştiraka görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə ödəniş edilir.";

1.10.2. aşağıdakı məzmunda 21.8-ci və 21.9-cu maddələr əlavə edilsin:

"21.8. Beynəlxalq müntəzəm marşrutların Azərbaycan Respublikasının ərazisində yerləşən, şəhərlərarası (rayonlararası) müntəzəm marşrutların isə şəhərlərin (rayon mərkəzlərinin) və ya qəsəbələrin ərazisində yerləşən başlanğıc, aralıq və son təyinat məntəqəsi yalnız avtovağzal (avtostansiya) olmalıdır.

21.9. Şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşımalarında bilet-uçot vərəqi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi üzərindən elektron qaydada doldurulur.";

1.11. 22-ci maddə üzrə:

1.11.1. 22.2-ci maddədə "müvafiq formada tərtib edilən" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində elektron qaydada doldurulan elektron" sözləri ilə əvəz edilsin;

1.11.2. aşağıdakı məzmunda 22.3-1-ci maddə əlavə edilsin:

"22.3-1. Bilet-uçot vərəqi olmadan şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşımalarının həyata keçirilməsinə yol verilmir.";

1.11.3. 22.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"22.4.Qeyri-müntəzəm sərnişin daşınması (taksi minik avtomobilləri ilə sərnişin daşınması istisna olmaqla) formulyar vasitəsilə rəsmiləşdirilir. Formulyarın formasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir. Formulyarı doldurmadan qeyri-müntəzəmsərnişin daşınmasının həyata keçirilməsinə yol verilmir.";

1.11.4.22.5-ci maddəyə "əmtəə-nəqliyyat" sözlərindən əvvəl "elektron" sözü əlavə edilsin;

1.12.27-ci maddə üzrə:

1.12.1.27.3-cü maddənin dördüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"Xüsusi hazırlığın təşkili və keçirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təmin edilir.";

1.12.2. aşağıdakı məzmunda 27.4-cü maddə əlavə edilsin:

"27.4. Xüsusi hazırlığın nəticələrinə dair daşıyıcılarla və ya sürücülərlə bağlanmış müqavilə əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılmış qiymətləndirməyə əsasən 7 (yeddi) il müddətində etibarlı olan, forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş sənəd verilir. Qiymətləndirmənin aparılmasına görə haqqın məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.13. 40-cı maddə üzrə:

1.13.1. 40.1-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Avtomobil nəqliyyatı ilə əmtəə təyinatlı yüklərin daşınması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində elektron qaydada doldurulan elektron əmtəə-nəqliyyat qaiməsi əsasında həyata keçirilir.";

1.13.2. 40.1-ci maddənin ikinci cümləsinə "əmtəə-nəqliyyat" sözlərindən əvvəl "elektron" sözü əlavə edilsin;

1.13.3. 40.2-ci maddənin birinci cümləsində "Əmtəə-nəqliyyat" sözləri "Elektron əmtəə-nəqliyyat" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsinə "əmtəə-nəqliyyat" sözlərindən əvvəl "elektron" sözü əlavə edilsin;

1.13.4. 40.3-cü maddənin birinci abzasında "Əmtəə-nəqliyyat" sözləri "Elektron əmtəə-nəqliyyat" sözləri ilə əvəz edilsin;

1.13.5.40.4-cü, 40.5-ci maddələrə və 40.8-ci maddənin birinci cümləsinə "əmtəə-nəqliyyat" sözlərindən əvvəl "elektron" sözü əlavə edilsin;

*Ardı 5-ci səh.*

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

1.14.41.1-ci, 44.4-cü, 44.5-ci, 45.2-ci, 46.2-ci, 46.3-cü, 46.4-cü və 47.2-ci maddələrə "əmtəə-nəqliyyat" sözlərindən əvvəl "elektron" sözü əlavə edilsin;

1.15. 43-cü maddə üzrə:

1.15.1. 43.1-ci, 43.2-ci, 43.5-ci maddələrə və 43.10-cu maddənin ikinci cümləsinə "əmtəə-nəqliyyat" sözlərindən əvvəl "elektron" sözü əlavə edilsin;

1.15.2. 43.6-cı maddədə "Əmtəə-nəqliyyat" sözləri "Elektron əmtəə-nəqliyyat" sözləri ilə əvəz edilsin və həmin maddəyə "əmtəə-nəqliyyat" sözlərindənəvvəl "elektron" sözü əlavə edilsin;

1.16. 50-ci və 57-1-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 50. Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların təşkili**

50.1. Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları, o cümlədən tranzit daşımaları Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq operator tərəfindən yerinə yetirilir. Operator işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlara, operatorun sürücüləri isə hazırlıq səviyyəsinə dair tələblərə cavab verməlidir.

50.2. Operatorun məsul şəxsləri, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən peşəkarlıq səriştəsinə dair təsdiq olunmuş proqram üzrə hazırlıq və yenidən hazırlıq keçməlidir. Hazırlıq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təşkil edilir və həyata keçirilir. Tədrisin nəticələrinə dair operatorla və ya sürücülərlə (məsul şəxslərlə) bağlanmış müqavilə əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılmış qiymətləndirməyə əsasən operatorun məsul şəxsinə və ya sürücüyə 7 (yeddi) il müddətində etibarlı olan, forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş sənəd verilir. Hazırlığın keçirilməsi və qiymətləndirmənin aparılması qaydası, habelə qiymətləndirmənin aparılmasına görə haqqın məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

50.3. Operatorun işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlar, sürücülərin hazırlıq səviyyəsinə dair tələblər, habelə operatorların uçotunun aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarına buraxılış qaydaları ilə müəyyən edilir.

50.4. İcazə sistemi tətbiq edən xarici dövlətlərə yerinə yetirilən beynəlxalq daşımalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən mübadilə edilən (əldə edilən) və verilən "İcazə" blankları (jurnalları) əsasında yerinə yetirilir. "İcazə" blankları (jurnallar) növbəlilik, bazar payı və ya malik olduğu nəqliyyat vasitələrinin sayı nəzərə alınmaqla operatorlar arasında bölüşdürülür. "İcazə" blankının (jurnalının) üzərində onun verildiyi operatorun adı və onu fərdiləşdirməyə imkan verən digər məlumatlar qeyd edilir. "İcazə" blanklarının (jurnalların) verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə haqq ödənilir.

50.5. "İcazə" blankları (jurnalları) Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikitərəfli beynəlxalq müqavilələrə və beynəlxalq avtomobil əlaqələri haqqında hökumətlərarası sazişlərə uyğun olaraq kvotalar üzrə mübadilə edilir və ya çoxtərəfli sazişlərə uyğun olaraq əldə edilir.

50.6. "İcazə" blanklarının (jurnallarının) doldurulması zamanı məlumatların təhrif olunması, pozulması və yenidən yazılması, habelə "İcazə" blankının (jurnalının) başqa şəxslərə ötürülməsi qadağandır.

50.7. Xarici dövlət qeydiyyat nişanlı avtomobil nəqliyyatı vasitəsi ilə ölkədaxili sərnişin və yük daşımalarının həyata keçirilməsi qadağandır.

50.8. Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtlərinin Azərbaycan Respublikasının ərazisində yerinə yetirilməsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin edir.";

**"Maddə 57-1. Beynəlxalq sərnişin və yük daşımalarında taxoqrafdan istifadə**

57-1.1. Operatorlar beynəlxalq daşımaları həyata keçirən avtonəqliyyat vasitələrini taxoqrafla təchiz etməlidirlər.

57-1.2. Operatorlar və beynəlxalq daşımaları yerinə yetirən sürücülər tərəfindən müvafiq daşımaların taxoqraf olmadan, habelə taxoqrafın yoxlanması haqqında şəhadətnamə və ya müvafiq möhür olmadan, yaxud yoxlanma müddəti bitmiş və ya plomblanması pozulmuş, tamamilə və ya hər hansı funksiyası işləməyən taxoqrafla, taxoqrafın qeydiyyata aldığı məlumatlar saxtalaşdırılmaqla yerinə yetirilməsinə yol verilmir.".

**Maddə 2.** Bu Qanun 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2023-cü il*

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.30 - 1.0.32-ci, 9.2-1-ci (hər iki halda) maddələrində, 9.2-2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 13.1-ci və 14.1-ci maddələrinin birinci abzaslarında, 14.1.7-ci maddəsində, 14.2-ci və 14.3-cü maddələrinin birinci abzaslarında, 14.3.5-ci maddəsində, 14.4-cü maddəsinin birinci abzasında, 15.1-ci və 15.2-ci maddələrinin birinci cümlələrində, 15.3-cü maddəsində, 15.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 15.5-ci maddəsinin birinci cümləsində, 15-1.1-ci və 21.2-ci maddələrinin ikinci cümlələrində (hər iki halda), 21.9-cu, 22.2-ci maddələrində, 22.4-cü maddəsinin ikinci cümləsində, 27.3-cü maddəsinin dördüncü cümləsində, 27.4-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 40.1-ci maddəsinin birinci cümləsində, 50.2-ci maddəsinin birinci, ikinci, üçüncü (hər iki halda) və dördüncü cümlələrində, 50.4-cü maddəsinin birinci və dördüncü (hər iki halda) cümlələrində, 50.8-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 50.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.3. həmin Qanunun 9.2-2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 14.3.5-ci maddəsində, 15.4-cü və 15.5-ci maddələrinin birinci cümlələrində, 15-1.1-ci maddəsinin ikinci cümləsində (birinci halda), 21.2-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 22.4-cü maddəsinin ikinci cümləsində, 27.4-cü maddəsinin birinci (ikinci halda) və ikinci cümlələrində, 50.2-ci maddəsinin birinci, üçüncü (ikinci halda) və dördüncü cümlələrində, 50.4-cü maddəsinin dördüncü cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 1.0.30-cu, 9.2-1-ci (birinci halda) maddələrində, 9.2-2-ci maddəsinin birinci cümləsində (birinci halda), 14.1.7-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 50.8-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 1.0.31-ci, 1.0.32-ci, 9.2-1-ci (ikinci halda) maddələrində, 9.2-2-ci maddəsinin ikinci cümləsində, 13.1-ci, 14.1 - 14.4-cü maddələrinin birinci abzaslarında, 15.1-ci və 15.2-ci maddələrinin birinci cümlələrində, 15.3-cü maddəsində, 15.4-cü maddəsinin ikinci cümləsində, 15-1.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 21.2-ci maddəsinin ikinci cümləsində (birinci halda), 21.9-cu, 22.2-ci maddələrində, 40.1-ci maddəsinin birinci cümləsində, 50.2-ci maddəsinin ikinci cümləsində, 50.4-cü maddəsinin birinci və dördüncü (birinci halda) cümlələrində"orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 27.3-cü maddəsinin dördüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə Peşə Təhsili üzrə Dövlət Agentliyi qismində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;

1.8. həmin Qanunun 27.4-cü maddəsinin birinci cümləsində (birinci halda) və 50.2-ci maddəsinin üçüncü cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1.aşağıdakı normativ-hüquqi aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.1."Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-2-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, taxoqrafdan istifadə, ona xidmət və ya rəqəmsal taxoqraf kartından istifadə üzrə xüsusi proqramı;

2.1.2. həmin Qanunun 14.3.5-ci maddəsinə uyğun olaraq, müntəzəm sərnişin daşımalarının həyata keçirilməsi nəzərdə tutulan avtonəqliyyat vasitələrinin gediş haqqının elektron qaydada ödənilməsi üçün ödəniş alətləri ilə təchiz olunması hallarını;

2.1.3. həmin Qanunun 15.5-ci maddəsinə uyğun olaraq, müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələbləri;

2.1.4. həmin Qanunun 15-1.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, taksi sifarişi operatorları tərəfindən hər bir taksi sifarişi üzrə real vaxt rejimində ötürülən adsızlaşdırılmış məlumatların, o cümlədən sürücünün iş və istirahət rejimlərinə riayət olunmasına nəzarət məqsədilə sürücü barədə məlumatların siyahısını;

2.1.5. həmin Qanunun 21.2-ci maddəsinin ikinci cümləsinə və 50.4-cü maddəsinin dördüncü cümləsinə uyğun olaraq, müsabiqədə iştiraka görə ödənişin məbləğini və "İcazə" blanklarının (jurnallarının) verilməsinə görə haqqın məbləğini;

2.1.6. həmin Qanunun 22.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq formulyarın formasını;

2.1.7. həmin Qanunun 27.4-cü maddəsinə uyğun olaraq, qiymətləndirmənin nəticələrinə dair sənədin formasını və qiymətləndirmənin aparılmasına görə haqqın məbləğini;

2.1.8. həmin Qanunun 50.2-ci maddəsinin üçüncü və dördüncü cümlələrinə uyğun olaraq, hazırlığın keçirilməsi və qiymətləndirilmənin aparılması qaydasını, qiymətləndirmənin nəticələrinə dair sənədin formasını, habelə qiymətləndirmənin aparılmasına görə haqqın məbləğini;

2.2. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 610; 2009, № 10, maddə 779; 2016, № 4, maddə 661, № 6, maddə 1064, № 11, maddə 1840; 2017, № 6, maddə 1083; 2018, № 12 (I kitab), maddə 2600; 2019, № 5, maddə 838, № 8, maddə 1408; 2020, № 5, maddə 544; 2021, № 1, maddə 17, № 6 (I kitab), maddə 593; 2023, № 3, maddələr 342, 372, № 4, maddə 482) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci, 2.1-2-ci, 2.2-ci, 2.2-3-cü və 2.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.8-1-ci, 1.0.30 - 1.0.32-ci, 6.5-ci, 9.2-1-ci (hər iki halda) maddələrində, 9.2-2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 13.1-ci və 14.1-ci maddələrinin birinci abzaslarında, 14.1.7-ci maddəsində, 14.2-ci və 14.3-cü maddələrinin birinci abzaslarında, 14.3.5-ci maddəsində, 14.4-cü maddəsinin birinci abzasında, 15.1-ci və 15.2-ci maddələrinin birinci cümlələrində, 15.3-cü maddəsində, 15.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 15.5-ci maddəsinin birinci cümləsində, 15-1.1-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 21.1-ci maddəsində, 21.2-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 21.9-cu, 22.2-ci maddələrində, 22.4-cü maddəsinin ikinci cümləsində, 26.4-cü maddəsində, 27.3-cü maddəsinin dördüncü cümləsində, 27.4-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 40.1-ci maddəsinin birinci cümləsində, 48.1-ci, 48.1-1-ci maddələrində, 48.1-2-ci maddəsinin ikinci cümləsində, 48.1-3-cü maddəsinin birinci cümləsində, 48.1-4-cü, 48.1-4.1-ci, 48.1-4.2-ci, 48.1-5-ci, 48.1-6-cı, 48.2-ci maddələrində, 50.2-ci maddəsinin birinci, ikinci, üçüncü (hər iki halda) və dördüncü cümlələrində, 50.4-cü maddəsinin birinci və dördüncü (hər iki halda) cümlələrində, 50.8-ci və 59-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

"2.1-2. həmin Qanunun 9.2-2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 14.3.5-ci maddəsində, 15.4-cü və 15.5-ci maddələrinin birinci cümlələrində, 15-1.1-ci maddəsinin ikinci cümləsində (birinci halda), 21.2-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 22.4-cü maddəsinin ikinci cümləsində, 27.4-cü maddəsinin birinci (ikinci halda) və ikinci cümlələrində, 48.1-2-ci maddəsinin ikinci cümləsində, 48.2-ci maddəsində, 50.2-ci maddəsinin birinci, üçüncü (ikinci halda) və dördüncü cümlələrində, 50.4-cü maddəsinin dördüncü cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.2. həmin Qanunun 3.2.1-ci, 7.5-ci maddələrində, 7.6-cı maddəsinin birinci və ikinci cümlələrində, 7-1.5-ci, 9.3-cü maddələrində, 27.3-cü maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;";

"2.2-3. həmin Qanunun 27.3-cü maddəsinin dördüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə Peşə Təhsili üzrə Dövlət Agentliyi qismində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;

2.3. həmin Qanunun 1.0.30-cu, 9.2-1-ci (birinci halda) maddələrində, 9.2-2-ci maddəsinin birinci cümləsində (birinci halda), 14.1.7-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;";

3.2. 2.1-1-ci bənddən ", 14.1-1.1-ci və 14.1-1.4-cü maddələrində, 15.5-ci maddəsinin ikinci cümləsində" sözləri çıxarılsın və həmin bənddə ", 50.5-ci maddəsinin birinci, ikinci və dördüncü cümlələrində və 50.6-cı maddəsində" sözləri "və 50.3-cü maddəsində" sözləri ilə əvəz edilsin;

3.3. 2.2-1-ci bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin və həmin bənddən ", Bakı şəhərinin inzibati ərazisində avtovağzallara (avtostansiyalara), yeraltı keçidlərə, metro çıxışlarına və velosiped zolaqlarına münasibətdə isə Bakı Nəqliyyat Agentliyi" sözləri çıxarılsın;

3.4. 2.2-2-ci bənddə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin və həmin bənddən ", Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə isə müvafiq olaraq Bakı Nəqliyyat Agentliyi, Sumqayıt və Gəncə şəhər icra hakimiyyəti başçıları yanında Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma idarələri" sözləri çıxarılsın;

3.5. 2.3-1-ci bənddə "və 48.1-4-cü maddəsində" sözləri ", 48.1-4-cü və 50.8-ci maddələrində" sözləri ilə əvəz edilsin;

3.6. aşağıdakı məzmunda 2.3-3-cü bənd əlavə edilsin:

"2.3-3. həmin Qanunun 1.0.31-ci, 1.0.32-ci, 9.2-1-ci (ikinci halda) maddələrində, 9.2-2-ci maddəsinin ikinci cümləsində, 13.1-ci,14.1 - 14.4-cü maddələrinin birinci abzaslarında, 15.1-ci və 15.2-ci maddələrinin birinci cümlələrində, 15.3-cü maddəsində, 15.4-cü maddəsinin ikinci cümləsində, 15-1.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 21.2-ci maddəsinin ikinci cümləsində (birinci halda), 21.9-cu, 22.2-ci maddələrində, 40.1-ci maddəsinin birinci cümləsində, 50.2-ci maddəsinin ikinci cümləsində, 50.4-cü maddəsinin birinci və dördüncü (birinci halda) cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;";

3.7. 2.4-cü bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin və həmin bənddən ", Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə isə müvafiq olaraq Bakı Nəqliyyat Agentliyi, Sumqayıt və Gəncə şəhər icra hakimiyyətinin başçıları yanında Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma idarələri" sözləri çıxarılsın;

3.8. 2.6-cı bənddə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin və həmin bənddən ", Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə müvafiq olaraq Bakı Nəqliyyat Agentliyi, Sumqayıt və Gəncə şəhər icra hakimiyyətlərinin başçıları yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri" sözləri çıxarılsın;

3.9. 2.8-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

"2.9. həmin Qanunun 27.4-cü maddəsinin birinci cümləsində (birinci halda) və 50.2-ci maddəsinin üçüncü cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur.".

4. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 aprel tarixli 1926 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 677) 3-cü hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin və həmin hissədən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə1031) ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.6. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq fəaliyyət növlərinə icazə, onların dublikatlarını və əlavələrini vermək, həmin icazələri yenidən rəsmiləşdirmək, dayandırmaq, bərpa və ya ləğv etmək, habelə icazə şərtlərinə riayət olunmasına nəzarəti həyata keçirmək;";

5.2. 3.1.22-ci yarımbəndə "məntəqələrinin," sözündən sonra "avtomobil nəqliyyatı parklarının," sözləri əlavə edilsin;

5.3. 3.1.25-ci yarımbənddən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın.

6. Bu Fərmanın1-ci, 3-5-ci hissələri 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2023-cü il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828, № 11, maddə 1236, № 12, maddələr 1364, 1399; 2023, № 1, maddələr 17, 20, 32, 39, № 2, maddələr 149, 201, 204, № 4, maddə 466; Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 868-VIQD nömrəli və 30 may tarixli 890-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 322-ci maddə üzrə:

1.1.1. 322.0.1-ci maddədə ikinci halda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin və həmin maddəyə "riayət olunmamasına" sözlərindən sonra ", o cümlədən müntəzəm şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə daşımalar zamanı başlanğıc, aralıq və son təyinat məntəqəsinin avtovağzaldan (avtostansiyadan) kənarda olmasına" sözləri əlavə edilsin;

1.1.2. 322.0.10-cu maddədə "görə -" sözü nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 322.0.11 - 322.0.14-cü maddələr əlavə edilsin:

"322.0.11. şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşınmasının bilet-uçot vərəqi olmadan həyata keçirilməsinə;

322.0.12. qeyri-müntəzəm sərnişin daşınmasının (taksi minik avtomobilləri ilə sərnişin daşınması istisna olmaqla) formulyar doldurulmadan həyata keçirilməsinə;

322.0.13. taksi minik avtomobili ilə sərnişin daşımalarının buraxılış kartında müəyyən edilən ərazi hüdudlarından kənarda həyata keçirilməsinə görə;

322.0.14. taksometrin göstəriciləri və ya taksometr funksiyasını yerinə yetirən proqram təminatı vasitəsilə müəyyən olunan qiymətdən əlavə ödənişin tələb edilməsinə görə - ";

1.1.3. sanksiyada "qırx manatdan əlli manatadək məbləğdə" sözləri "əlli manat məbləğində" sözləri ilə əvəz edilsin;

1.2. 323.2-ci maddənin dispozisiyasına "yüklərin" sözündən sonra "elektron" sözü əlavə edilsin və həmin maddənin sanksiyasında "iyirmi" sözü "qırx" sözü ilə əvəz edilsin;

1.3. 324-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 324. İcazə olmadan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması**

324.1. Buraxılış vəsiqəsi olmadan daşıyıcı tərəfindən taksi minik avtomobilləri ilə sərnişin daşınmasının təşkilinə görə -

vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.

324.2. Buraxılış kartı olmadan taksi minik avtomobilləri ilə sərnişin daşınmasına görə -

əlli manat məbləğində cərimə edilir.

324.3. Buraxılış vəsiqəsi olmadan daşıyıcı tərəfindən yük və qeyri-müntəzəm sərnişin daşınmasının təşkilinə görə -

vəzifəli şəxslər üç yüz manat məbləğində, hüquqi şəxslər min iki yüz manat məbləğində cərimə edilir.

324.4. Buraxılış kartı olmadan yük və qeyri-müntəzəm sərnişin daşınmasına görə -

əlli manat məbləğində cərimə edilir.

324.5. Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrut üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında müqavilə olmadan müntəzəm sərnişin daşımalarının təşkilinə görə -

vəzifəli şəxslər üç yüz manat məbləğində, hüquqi şəxslər min iki yüz manat məbləğində cərimə edilir.

324.6. Bu Məcəllənin 324.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər iki min manat məbləğində cərimə edilir.

324.7. Bu Məcəllənin 324.2-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

səksən manat məbləğində cərimə edilir.

324.8. Bu Məcəllənin 324.3-cü maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

vəzifəli şəxslər altı yüz manat məbləğində, hüquqi şəxslər iki min dörd yüz manat məbləğində cərimə edilir.

324.9. Bu Məcəllənin 324.4-cü maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

yüz manat məbləğində cərimə edilir.

324.10. Bu Məcəllənin 324.5-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

vəzifəli şəxslər altı yüz manat məbləğində, hüquqi şəxslər iki min dörd yüz manat məbləğində cərimə edilir.";

1.4. aşağıdakı məzmunda 324-1-324-3-cü və 326-2-ci maddələr əlavə edilsin:

**"Maddə 324-1. Beynəlxalq sərnişin və yük daşımaları zamanı icazə blanklarından (jurnallarından) istifadə qaydalarının pozulması**

324-1.1. "İcazə" blankının (jurnalının) doldurulması zamanı məlumatların təhrif olunmasına, pozulmasına və yenidən yazılmasına, habelə "İcazə" blankının (jurnalının) başqa şəxsə ötürülməsinə görə -

fiziki şəxslər iki yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.

324-1.2. Bu Məcəllənin 324-1.1-ci maddəsində nəzərdə tutulmuş xətaların inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

fiziki şəxslər dörd yüz manat məbləğində, vəzifəli şəxslər iki min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.

**Maddə 324-2. Hazırlıq keçməmiş sürücülərin avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasına cəlb edilməsi**

324-2.1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada hazırlıq keçməmiş sürücülərə daşıyıcı tərəfindən sərnişin və yük daşınmasının həyata keçirilməsi üçün buraxılış kartının verilməsinə görə -

vəzifəli şəxslər üç yüz manat məbləğində, hüquqi şəxslər min iki yüz manat məbləğində cərimə edilir.

324-2.2. Bu Məcəllənin 324-2.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

vəzifəli şəxslər altı yüz manat məbləğində, hüquqi şəxslər iki min dörd yüz manat məbləğində cərimə edilir.

**Maddə 324-3. Xarici dövlət qeydiyyat nişanlı nəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində ölkədaxili sərnişin və yük daşımalarının yerinə yetirilməsi**

324-3.1. Xarici dövlət qeydiyyat nişanlı nəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində ölkədaxili sərnişin və yük daşımalarının yerinə yetirilməsinə görə -

dörd yüz manat məbləğində cərimə edilir.

324-3.2. Bu Məcəllənin 324-3.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

min manat məbləğində cərimə edilir.";

**"Maddə 326-2. Taksi sifarişi operatorları tərəfindən avtomobil nəqliyyatı haqqında qanunvericiliyin pozulması**

326-2.1. İcazə olmadan taksi sifarişi operatoru kimi fəaliyyət göstərilməsinə görə -

vəzifəli şəxslər on min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir.

326-2.2. Taksi sifarişi operatorları tərəfindən "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, taksi sifarişi xidmətinin göstərilməsi zamanı istifadə olunan fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatından keçirilməməsinə və fərdi məlumatların mühafizəsi ilə bağlı tələblərə riayət olunmamasına görə -

vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.

326-2.3. Taksi sifarişi operatorlarının informasiya sistemlərində olan taksi sifarişləri, habelə sürücünün iş və istirahət rejimi ilə bağlı məlumatların "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə real vaxt rejimində ötürülməsini təmin edən mexanizmin yaradılmamasına və ya həmin mexanizmin fəaliyyət göstərməməsinə görə -

vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.

326-2.4. Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi və avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasının, sürücülərin reysqabağı tibbi müayinəsinin təşkili imkanı barədə sənədləri və ya müvafiq xidmətlərdən istifadə olunmasına dair texniki məntəqə və ya tibb məntəqəsi ilə müqavilələri olmayan daşıyıcıya, habelə müvafiq buraxılış kartı və taksi minik avtomobillərinin sürücülərinin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədi olmayan sürücüyə taksi sifarişi xidmətinin göstərilməsinə görə -

vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər üç yüz manat məbləğində cərimə edilir.";

1.5. 326-1-ci maddənin adından, 326-1.1-ci maddənin birinci abzasından və 326-1.2-ci maddədən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın.

**Maddə 2. Keçid müddəalar**

2.1. Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

2.2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 322.0.12-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədilməsinə görə məsuliyyət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən formulyarın forması müəyyən edildikdən sonra yaranır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,14 iyul 2023-cü il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 974-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 974-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 326-2.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 326-2.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.3. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 974-VIQD nömrəli Qanununun 2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 2.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 322.0.11 - 322.0.14-cü, 324-cü, 324-1 - 324-3-cü, 326-2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxan müvafiq icra hakimiyyəti orqanları barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 974-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli, 17 iyul tarixli 2221 nömrəli, 18 iyul tarixli 2228 nömrəli, 27 iyul tarixli 2251 nömrəli və 1 avqust tarixli 2272 nömrəli fərmanları) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bəndə "275.2," rəqəmlərindən sonra "326-2.3," rəqəmləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 4.27-1-ci bənd əlavə edilsin:

"4.27-1. həmin Məcəllənin 326-2.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;".

4. Bu Fərmanın 1-ci və 3-cü hissələri 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2023-cü il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832, № 12, maddələr 1376, 1385, 1400; 2023, № 1, maddələr 1, 10, 14, 23, 36, № 2, maddə 158, № 3, maddə 336, № 4, maddələr 445, 467) 221.4.7-ci və 221.4.8-ci maddələrinin birinci abzaslarından "nəqliyyat siyasətini həyata keçirən" və "mərkəzi" sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2023-cü il*

# "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986, № 8, maddə 1360, № 11, maddə 1692, № 12, maddə 1903; 2020, № 6, maddə 662; 2021, № 6 (I kitab), maddə 551, № 7, maddə 701, № 12, maddələr 1315, 1329, 1339; 2022, № 5, maddə 426; 2023, № 2, maddələr 169, 205, 210, № 4, maddə 449) 3 nömrəli əlavəsi - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 32-35-ci maddələri aşağıdakı redaksiyada verilsin:

"32. Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün operatorlara verilən beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsi;

33. ölkədaxili sifarişli daşımalara buraxılış vəsiqəsi;

34. taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi;

35. taksi sifarişi operatoru fəaliyyətinə icazə;".

**Maddə 2.** Bu Qanun 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2023-cü il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832, № 12, maddələr 1376, 1385, 1400; 2023, № 1, maddələr 1, 10, 14, 23, 36, № 2, maddə 158, № 3, maddə 336, № 4, maddələr 445, 467) 30.6.16-cı maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 30.6.17-ci maddə əlavə edilsin:

"30.6.17. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma).".

**Maddə 2.** "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 53; 2006, № 8, maddə 657; 2018, № 3, maddə 378; 2019, № 11, maddə 1689; 2021, № 7, maddə 701; 2022, № 7, maddə 696) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 13-cü maddənin ikinci hissəsində "qanunvericiliklə müəyyən edilmiş qaydada tender yolu ilə" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin;

2.2. 24-cü maddənin üçüncü hissəsində "tenderdə" sözü "satınalmada" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 584; 2003, № 6, maddə 267; 2004, № 12, maddə 979; 2005, № 5, maddə 393, № 12, maddə 1083; 2006, № 2, maddə 67, № 3, maddə 225, № 12, maddə 1012; 2007, № 12, maddə 1202; 2008, № 12, maddə 1049; 2009, № 6, maddə 395, № 7, maddə 505; 2012, № 6, maddə 528; 2014, № 8, maddə 958; 2016, № 11, maddə 1777; 2017, № 1, maddələr 18, 32; 2018, № 8, maddə 1671, № 12 (I kitab), maddə 2500; 2019, № 8, maddə 1365, № 11, maddə 1688; 2020, № 12 (l kitab), maddə 1449; 2021, № 12, maddə 1330; 2022, № 12, maddələr 1377, 1394) 17.2-ci maddəsində "bir ay" sözləri "5 (beş) iş günü" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; 2020, № 6, maddə 675, № 8, maddə 1017, № 11, maddələr 1323, 1335; 2021, № 12, maddə 1312; 2022, № 8, maddə 827; 2023, № 1, maddələr 2, 41, № 2, maddə 179; Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 865-VIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 15.9.1-2-ci maddə əlavə edilsin:

"15.9.1-2. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma);".

**Maddə 5.** "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592; 2014, № 12, maddə 1516; 2016, № 4, maddə 643; 2018, № 12 (I kitab), maddələr 2470, 2530; 2019, № 1, maddələr 5, 21, № 2, maddə 184, № 12, maddə 1901; 2020, № 6, maddə 669, № 7, maddə 829; 2021, № 7, maddə 711; 2023, № 2, maddə 180, № 4, maddə 451) 67.2-ci maddəsində "və ya subordinasiya baxımından yuxarı inzibati orqan" sözləri ", subordinasiya baxımından yuxarı inzibati orqan və ya qanunla şikayətə baxmaq səlahiyyətinə malik olan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2023-cü il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 989-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli və "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 28 dekabr tarixli 345 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 989-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 30.6.17-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 30.6.17-ci maddəsində "orqan (qurum)" dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.3. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 15.9.1-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 15.9.1-2-ci maddəsində "orqan (qurum)" dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 67.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Qanunun 67.2-ci maddəsində "orqan (qurum)" dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 989-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220, № 4, maddə 323, № 6 (I kitab), maddə 585, № 12, maddələr 1398, 1425; 2022, № 1, maddə 22, № 12, maddə 1456; 2023, № 2, maddə 235, № 4, maddə 469; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2216 nömrəli və 1 avqust tarixli 2271 nömrəli fərmanları) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "30.6.16-cı (hər iki halda)," sözlərindən sonra "30.6.17-ci," sözləri əlavə edilsin;

3.2. 1.12-2-ci bənddə "maddəsində" sözü "və 30.6.17-ci maddələrində" sözləri ilə əvəz edilsin.

4. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; 2018, № 12 (I kitab), maddə 2614; 2019, № 2, maddə 211; 2020, № 8, maddə 1029, № 11, maddələr 1360, 1362; 2021, № 12, maddə 1400; 2022, № 8, maddə 840; 2023, № 1, maddə 46, № 3, maddə 345; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2276 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "15.9.1-1-ci" sözlərindən sonra ", 15.9.1-2-ci" sözləri əlavə edilsin;

4.2. 2.9-2-ci bənddə "maddəsində" sözü "və 15.9.1-2-ci maddələrində" sözləri ilə əvəz edilsin.

5. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 345 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1114; 2019, № 1, maddə 74, № 2, maddə 215; 2022, № 6, maddə 612) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə "ikinci cümləsində" sözlərindən sonra "və 67.2-ci maddəsində" sözləri əlavə edilsin;

5.2. 2.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. həmin Qanunun 67.2-ci maddəsində "orqan (qurum)" dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.".

6. Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 avqust 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2016-cı il 11 aprel tarixli 858 nömrəli, "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 19 dekabr tarixli 1748 nömrəli, "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli, "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2018-ci il 7 fevral tarixli 1819 nömrəli, "Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 19 mart tarixli 597 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarında və "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61, № 7, maddə 533, № 10, maddə 780, № 12, maddə 983; 2010, № 2, maddələr 77, 80; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 108, № 9, maddə 988; 2016, № 9, maddə 1479; 2017, № 5, maddə 771, № 6, maddə 1081; 2018, № 1, maddə 47, № 3, maddə 450, № 5, maddə 912, № 12 (I kitab), maddələr 2556, 2572; 2019, № 3, maddə 409, № 5, maddə 834, № 10, maddə 1587; 2021, № 9, maddə 988; 2022, № 8, maddə 874, № 12, maddə 1425; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyul tarixli 2233 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə II - "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.6-cı bəndi aşağıdakı redaksiyada verilsin:

"8.6. dövlət satınalmalarının maliyyə vəsaitindən (Azərbaycan Respublikası dövlət büdcəsinin və Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaitləri, o cümlədən məqsədli büdcə fondlarının vəsaitləri, büdcə ssudaları, subsidiyalar, dövlət zəmanəti ilə alınmış kreditlər, dövlət qrantları, yardımları, büdcədənkənar dövlət fondlarının vəsaitləri) səmərəli və qənaətlə istifadə edilməsi prinsipləri əsasında həyata keçirilməsini təmin etmək məqsədilə həmin sahə üzrə dövlət tənzimlənməsində, dövlət siyasətinin həyata keçirilməsində, normativ hüquqi aktların hazırlanmasında və ekspertizasının aparılmasında iştirak etmək;".

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217; 2022, № 5, maddə 475, № 10, maddə 1133, № 11, maddə 1264; 2023, № 1, maddə 84, № 2, maddə 245, № 5, maddələr 658, 665; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyul tarixli 2232 nömrəli və 26 iyul tarixli 2244 nömrəli fərmanları) ilə təsdiq edilmiş Əlavə 1 - "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında Əsasnamə"nin 4.1.10-cu yarımbəndində "qanunla müəyyən edilmiş qaydada müsabiqə və tenderlər" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 663, № 11, maddə 1820; 2017, № 5, maddə 820, № 9, maddə 1656; 2018, № 2, maddə 183; 2019, № 3, maddə 411, № 5, maddə 817; 2020, № 5, maddə 545; 2022, № 8, maddə 853) 9.1-ci bəndində "Qanunu ilə müəyyən edilmiş qaydada müsabiqə" sözləri "Qanununa uyğun olaraq satınalma" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1748 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2316; 2020, № 7, maddə 875; 2022, № 10, maddə 1130) ilə təsdiq edilmiş "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1.3-cü yarımbənddə "satınalmalar haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada tenderlərin (müsabiqələrin)" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmaların" sözləri ilə əvəz edilsin;

4.2. 3.1.26-cı yarımbənddə "tenderlərdə (müsabiqələrdə) müvafiq qanunvericiliyə" sözləri "satınalmalarda "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri ilə əvəz olunsun.

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 897, № 8, maddə 1690; 2019, № 1, maddə 60, № 3, maddələr 411, 416, № 6, maddə 1014, № 12, maddə 1923; 2021, № 5, maddə 434; 2022, № 8, maddə 891, № 10, maddə 1134) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 2.2.19-cu yarımbəndində "qanunla müəyyən edilmiş qaydada tenderlər (müsabiqələr)" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 fevral tarixli 1819 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 183, № 6, maddə 1196; 2020, № 2, maddə 93) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin Nizamnaməsi"nin 3.2.18-ci yarımbəndində "qanunla müəyyən edilmiş qaydada tenderlər (müsabiqələr)" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 597 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 437, № 10, maddə 1581; 2021, № 12, maddə 1405; 2022, № 4, maddə 306, № 8, maddə 883; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2185 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin Nizamnaməsi"nin 3.2.17-ci yarımbəndində "qanunla müəyyən edilmiş qaydada tenderlər (müsabiqələr)" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542, № 7, maddə 862, № 9, maddə 1151; 2021, № 12, maddə 1398; 2022, № 9, maddə 1037; 2023, № 1, maddə 79) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.0.5-ci yarımbənddə "dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin)" sözləri "maliyyə vəsaiti hesabına satınalma predmetinin" sözləri ilə əvəz edilsin;

8.2. 3.0.29-cu yarımbənddə "malgöndərənlərin" sözü "təchizatçıların" sözü ilə əvəz edilsin;

8.3. 3.0.30-cu yarımbənddə "dövlət vəsaitindən" sözləri "maliyyə vəsaitindən" sözləri ilə və "şəffaflıq, aşkarlıq, bərabərlik və rəqabətlilik prinsipləri" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində nəzərdə tutulmuş prinsiplər" sözləri ilə əvəz edilsin;

8.4. 3.0.31-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.0.31. maliyyə vəsaiti hesabına satınalma predmetinin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satın alınmasına və satınalma müqavilələrinin icrasına nəzarət etmək, mübahisəli məsələləri araşdırmaq və nəticəsindən asılı olaraq həmin Qanunda nəzərdə tutulmuş qaydada tədbirlər görmək;";

8.5. 3.0.34-cü yarımbənddə "malgöndərənlərin (podratçıların) şikayətlərinə" sözləri "təchizatçıların şikayətlərinə "İnzibati icraat haqqında" və" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 339; 2023, № 3, maddə 391) ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı" hissəsinin 2.15-ci bəndində "Tədbirin adı" sütununda "tender" sözü "satınalma" sözü ilə, "Aralıq nəticə" sütununda "Tender" sözü "Satınalma" sözü ilə əvəz edilsin.

10. Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 avqust 2023-cü il*

# Ümummilli Liderin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanın dövlət müstəqilliyi möhkəmləndirilib



**Ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Prezidentinin Sərəncamının icrası ilə əlaqədar müdafiə nazirinin təsdiqlədiyi plana əsasən, Azərbaycan Ordusunda keçirilən silsilə tədbirlər davam edir.**

Müdafiə Nazirliyinin tabeliyindəki "N" hərbi hissəsində keçirilən tədbirdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, həmçinin Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla anılıb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edənlər Ulu Öndərin müasir Azərbaycan Ordusunun yaradılması və inkişafında misilsiz xidmətlərindən danışıblar. Qeyd olunub ki, bu il anadan olmasının 100 illiyini təntənə ilə qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın dövlət müstəqilliyi möhkəmləndirilib, ölkəmizin beynəlxalq mövqeyi güclənib. Onun müdrik siyasətini uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sayəsində ölkəmizin durmadan inkişaf etdiyi xüsusi vurğulanıb.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi Ulu Öndərə həsr olunmuş musiqi nömrələrini təqdim ediblər.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*





## "Böyük qayıdış" proqramı sürətlə icra olunur

# Füzulililərin yurda köçmək həsrəti bitir...

## Onların doğma ocaqlarına dönüşünə başlandı

**Keçmiş məcburi köçkünlər torpaqlarına qayıdırlar. Bu sevinci yaşamaq növbəsi indi də füzulililərə çatıb. Otuz il yurd həsrəti çəkən, dədə-baba torpaqlarına dönmək, orada yenidən məskunlaşmaq arzuları, ümidləri ilə yaşayan füzulililərin həsrəti bitir...**













Füzuli sakinlərinin doğma yurda qayıdışına başlanıldı. Füzuli şəhərinə ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park - 3" yaşayış kompleksindən avqustun 18-də səhər saatlarında yola salındı. Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 23 ailə - 90 nəfər bundan sonra doğma yurdda yaşayacaq.

Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları əsasında, şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparılıb. Püşkatma avqustun 5-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Repatriasiya Departamentində keçirilib. Püşkatmada 144 ailə ( 509 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 51-i ikiotaqlı, 76-sı üçotaqlı, 17-si dördotaqlı mənzillə təmin olunub. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov mətbuata açıqlamasında bildirib ki, "Böyük qayıdış" Dövlət Proqramına uyğun olaraq, bu proses mərhələli şəkildə aparılacaq. Dövlət Komitəsinin rəsmisi qayıdış prosesinin kompleks bir məsələ olduğunu vurğulayıb. O, insanların məskunlaşması ilə bərabər, onların sosial, yəni məşğulluq, təhsil, sağlamlığı ilə bağlı məsələlərin də diqqətdə saxlanıldığını, zəruri addımlar atıldığını bildirib: "Komitə bu məsələdə aidiyyəti qurumlarla birgə işləyir. TƏBİB-lə razılaşmaya əsasən, qayıdışdan öncə sakinlər pulsuz tibbi müayinədən keçirilir və yüksək səviyyədə yoxlanılırlar".

İşğaldan azad olunmuş rayonlara köçürülən sakinlərin, TƏBİB tərəfindən tibbi müayinələri aparılıb. Müayinələr "Böyük qayıdış" layihəsi çərçivəsində və icbari tibbi sığorta hesabına vətəndaşlar üçün ödənişsiz əsaslarla həyata keçirilib. Eyni zamanda Füzuli şəhərinə köçürülən sakinlər Füzuli Rayon Mərkəzi Xəstəxanasının Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının həkim briqadası tərəfindən 24 saat ərzində tibbi xidmətlə təmin olunacaqlar.

Erməni vandallarının 1990-cı illərdə işğal etdikləri və otuz ilə yaxın əsarətdə saxladıqları müddətdə taladıqları, uçurub dağıtdıqları, od vurub yandırdıqları, xarabalığa çevirdikləri Qarabağ və Şərqi Zəngəzur ərazilərində Azərbaycan dövləti Vətən müharibəsində qazandığı böyük zəfərindən sonra geniş tikinti-quruculuq işləri həyata keçirir. Təcavüzkar, işğalçı ermənilərin viran qoyduqları yurdlarımız bir-bir abad edilir. Və keçmiş məcburi köçkünlər sonsuz sevinclə öz doğma yurdlarına dönürlər.

Problemimiz yalnız qəddar, vəhşi düşmənin xarabalığa çevirdiyi yaşayış məskənlərimizi yenidən abad etmək deyil. Məkrli, işğalçı Ermənistan hər zamankı kimi beynəlxalq hüququ heçə sayaraq Qarabağ və Şərqi Zəngəzur ərazilərində minaladığı sahələrin xəritəsini Azərbaycan tərəfinə verməkdən imtina edir. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini mina təhlükəsinin qayıdış prosesinə ən böyük maneələrdən biri olduğunu diqqətə çatdırıb. Fuad Hüseynov torpaqlarımızın mina və partlamamış sursatla çirkləndirildiyini bildirib. Qeyd edib ki, beynəlxalq ekspertlərin rəyinə əsasən, həmin sahələr dünyada ən çirkli ərazilər hesab olunur: "Minalardan təmizləmə çox çətin bir prosesdir. Bu həm vaxt aparan işdir, həm də maliyyə vəsaiti tələb edir. Amma dövlətimiz bu işin də öhdəsindən gələcək və erməni vandallarının xarabazara və çirkli ərazilərə çevirdiyi torpaqlar gülüstana, həyat qaynayan bir məkana dönəcək. Azərbaycan postmüharibə dövründə sürətli bərpa və yenidənqurma, keçmiş məcburi köçkünlərin reinteqrasiya prosesi modelini tezliklə dünyaya təqdim edəcək".

Haqqı, ədaləti, hüququ görməzlikdən gələn bir sıra beynəlxalq təşkilatların və dövlətlərin işğalçı Ermənistana dəstək verməsinə rəğmən öz ərazilərini geri almağa müvəffəq olan Azərbaycan dövləti bu çətinliklərin də öhdəsindən gəlməkdədir. İşğaldan azad edilmiş yaşayış məskənlərimiz abad edilir, nisgilə, həsrətə son qoyulur. O ərazilərimizin başdan-başa gülüstana çevriləcəyi günlər uzaqda deyil.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Füzuli şəhərində Özbəkistanın inşa etdiyi məktəbdə son tamamlama işləri görülür

**Özbəkistan Respublikası tərəfindən Füzuli şəhərində inşa edilən 960 şagird yerlik məktəbdə də tikinti işləri aparılır. Bu barədə Trend-ə Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Leyla Sarabi deyib.**

Onun sözlərinə görə, təhsil ocağında son tamamlama işləri görülür. "Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılıb. Məktəbin ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib", - deyə o qeyd edib.

Xatırladaq ki, mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olublar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya inşaat işlərinin gedişi barədə məlumat verilib. Bildirilib ki, ötən il başlanılan tikinti işlərinin bu ilin dekabrında başa çatdırılması planlaşdırılır. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilir.

Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzulidə böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

## İDMAN

# *Avropa Liqası:* "Qarabağ" pley-off oyunları üçün iştirak ərizəsini UEFA-ya təqdim edib

**"Qarabağ" Avropa Liqasının pley-off mərhələsində Sloveniyanın "Olimpiya" komandası ilə keçirəcəyi oyunlar üçün iştirak ərizəsini UEFA-ya göndərib.**



AZƏRTAC qitə futbol qurumunun rəsmi saytına istinadən xəbər verir ki, siyahıda 25 futbolçunun adı yer alıb.

Oyunçulardan üçü qapıçı, onu müdafiəçi, onu yarımmüdafiəçi, üçü isə hücumçudur.

Qapıçılar: 1. Şahruddin Məhəmmədəliyev, 23. Luka Quqeşaşvili, 89. Amin Ramazanov.

Müdafiəçilər: 4. Rahil Məmmədov, 5. Maksim Medvedev, 13. Bəhlul Mustafazadə, 27. Toral Bayramov, 29. Marko Veşoviç, 30. Abbas Hüseynov, 44. Elvin Cəfərquliyev, 55. Bədavi Hüseynov, 81. Kevin Medina, 83. Nihad Quliyev

Yarımmüdafiəçilər: 6. Julio Romao, 7. Yassin Benzia, 8. Marko Yankoviç, 10. Abdullah Zubir, 15. Leandro Andrade, 20. Riçard Almeyda, 11. Adama Diakabi, 17. Hamidu Keyta, 18. Juninyo

Hücumçular: 99. Redon Cica, 18. Juninyo, 90. Nəriman Axundzadə

Qeyd edək ki, "Qarabağ" "Olimpiya"ya qarşı ilk matçını avqustun 24-də səfərdə, cavab görüşünü isə avqustun 31-də evdə keçirəcək.

# Bakıda Atıcılıq üzrə Dünya Çempionatında növbəti medallar sahibini tapıb



**Bakıda Atıcılıq üzrə 53-cü Dünya Çempionatı davam edir. AZƏRTAC xəbər verir ki, bu gün kişilər arasında 10 metr məsafəyə pnevmatik tüfəngdən atəşaçma yarışları keçirilib.**

İsveçli Viktor Lindqren hamını qabaqlayaraq qızıl medal qazanıb. 20 yaşlı atıcı 251.3 xal toplayıb. Çin təmsilçisi Haoran Yanq gümüş medalın sahibi olub. O, liderdən 0,7 xal geri qalıb. Bürünc medal çexiyalı Frantisek Smetananın payına düşüb. Komanda yarışında isə Çin qızıl medal əldə edib. Çexiya gümüş, Xorvatiya komandası isə bürünc medala sahib çıxıb.

İlk oyunun nəticələrinə görə, İsveç, Çin, Çexiya və Qazaxıstan idmançıları öz ölkələrinə "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya qazandırıblar.

Viktor Lindqren mükafatlandırma mərasimindən sonra yarış və qazandığı qızıl medalla bağlı təəssüratlarını bölüşüb: "Bu, mənim Bakıya ikinci səfərimdir. İlk dəfə Dünya kubokunda iştirak etmişdim. Burada hər şey möhtəşəmdir. Həm təşkilatçılıq, həm də şəhər çox gözəldir. Medal qazandığıma hələ də inana bilmirəm. Çox möhtəşəm duyğudur. Ölkəmin gələn il Parisdə keçiriləк Yay Olimpiya Oyunlarına vəsiqə qazanması da möhtəşəm oldu. Orada qızıl medal qazanmaq üçün qarşıdakı bir il boyunca səylə çalışmalıyıq".


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5448
Sifariş 2060

Qiyməti 40 qəpik